Metodik vəsait

# Həyat bilgisi 2




LAYİHƏ

LAYİHƏ

*NƏRGİZ CABBARLI*
*HƏQİQƏT ABBASOVA*
*SEVİNC MƏMMƏDOVA*

*Ümumi təhsil müəssisələrinin* **2***-ci sinifləri üçün*

# HƏYAT BİLGİSİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


Giriş ........ 4
Dərsliyin komponentləri və strukturu ........ 5
Layihələr ........ 8
Dərslikdəki yeniliklər ........ 9
Məzmun standartları və onların şərhi ........ 9
Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün
Həyat bilgisi fənni üzrə məzmun standartları ........ 11
Məzmun xətləri üzrə əsas və alt standartlar ........ 12

**TƏLİM FORMALARI ........ 14**
Həyat bilgisi dərslərinin təşkilində istifadə
olunması tövsiyə edilən üsullar ........ 14
Mövzuların saatlar üzrə bölgüsü ........ 15
Planlaşdıma ........ 15
İnteqrativlik prinsipinin nəzərə alınması ........ 15
2-ci sinif üçün Həyat bilgisi fənni üzrə illik
planlaşdırma nümunəsi ........ 16
Şagirdlərin qiymətləndirilməsinə dair tövsiyələr ........ 19
Formativ qiymətləndirmə ........ 20

**İnsan qrupları**
1. Ailə ........ 22
Layihə. Ailə güzgüsü ........ 24
2. Kollektiv ........ 25

**Məktəbə gedərkən**
3. Gün rejimi ........ 28
4. Nəqliyyat vasitələri ........ 30
Layihə. “Nəqliyyat” ensiklopediyası ........ 32
5. Yol hərəkəti qaydaları ........ 33
6. Məktəb qaydaları ........ 35


LAYİHƏ

**Davranış mədəniyyəti**


7. Nəzakət qaydaları ............ 38
8. Yaxşı xüsusiyyətlər ............ 40
9. Yanlış davranışlar ............ 42
10. Dinlər ............ 44
Layihə. Zəfər çələngi ............ 46


**Yaşadığımız dünya**


11. Canlılar aləmi ............ 48
Layihə. Qırmızı kitab ............ 50
12. Cansızlar ............ 51
13. Canlılara lazım olanlar ............ 53
14. Fəsillər ............ 54
15. Suyun dovranı ............ 56
16. Coğrafi obyektlər ............ 58
17. Ufuq ............ 60
18. Ətraf muhit ............ 62
Layihə. Xəzinə axtarışı ............ 64


**Hüquqlar**


19. Uşaq huquqları ............ 66
20. Dovlətin əlamətləri ............ 67
21. Pullar ............ 68
22. Budcə ............ 69
Layihə. Budcəni idarə edirik ............ 70


**Sağlamlıq**


23. Sağlam həyat ............ 72
24. Ehtiyat tədbirləri ............ 74
25. Təhlukəli avadanlıqlar ............ 76
26. Qəzalardan mudafiə ............ 78

**Ədəbiyyat siyahısı ............ 80**


LAYİHƏ

# GİRİŞ

“Həyat bilgisi” fənni özünü bioloji, psixoloji, sosial və mənəvi cəhətdən tam şəkildə dərk edə bilməsi üçün hər bir şagirddə lazım olan bilik, bacarıq və dəyərlər formalaşdırmağa xidmət edir. Şagirdlər bu fənn vasitəsilə saflıq, düzlük, əqidəlilik, ədalətlilik, dözümlülük, tolerantlıq, özünə və başqalarına hörmət, ətraf mühiti qorumaq bacarığı kimi yüksək mənəvi dəyərlər əldə edə bilərlər. Məhz bu fənnin tədrisi zamanı şagirdlərə mənəviyyat, sağlamlıq, təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyi izah edilir, onlarda fövqəladə hallar və təbii fəlakətlər zamanı düzgün davranış qaydaları, vətəndaşlıq, insan hüquqları və azadlıqları, ekoloji tərbiyə məsələləri üzrə bilik və bacarıqlar sistemli şəkildə formalaşdırılır.

“Həyat bilgisi” fənninin əsas məqsədi yaradıcı, tənqidi və məntiqi təfəkkürü inkişaf etdirməkdir. Ətraf aləm, ailə, dövlət və dövlətçilik, din, səmavi dinlərin oxşar və fərqli cəhətləri, canlı və cansızlar aləmi, yol hərəkəti qaydaları, ailədə, məktəbdə, cəmiyyətdə nəzakət və davranış qaydaları haqqında ibtidai şəkildə bilik vermək də bu məqsədlər sırasındadır. Bu fənnin tədrisi öyrəndiklərini tətbiq yolu ilə şagirdlərdə müqayisəetmə, izahetmə, şərhetmə, nümayişetdirmə və s. bacarıqları tərbiyə edir.

Dərsliyi tərtib edən müəlliflər ibtidai sinif pillələri üçün hazırlanan “Həyat bilgisi” dərsliklərinə konseptual bir şəkildə yanaşaraq hər dərslik üçün əsas götürülən konsepsiyaların yaş həddinə uyğunluğuna, dərsliklər arasında varislik prinsipinin qorunmasına, mövzuların inkişafetdirilməsi probleminə xüsusi diqqət yetirmişlər. Bununla da, 2-ci sinif üçün “Həyat bilgisi” dərsliyi vasitəsilə şagirdlər yuxarıda sadalanan mövzularla bağlı 1-ci sinifdə əldə etdikləri bilikləri bir az da dərinləşdirə biləcəklər.

Məsələn,

1-ci sinifdə 1.2.1 standartı (Coğrafi obyektləri (dağ, təpə, dərə, düzənlik, çay, göl) əlamətlərinə görə fərqləndirir.) düzgün reallaşıbsa, deməli, şagirdlər coğrafi obyektlər haqqında sadə məlumatları əldə edərək onları müvafiq xüsusiyyətlərinə görə bir-birindən fərqləndirməyi artıq bacarırlar. 2-ci sinifdə isə həmin standart (1.2.1.) şagirdlərdən öyrəndikləri məlumatın dərinləşdirilməsini, coğrafi obyektlərin yaranma səbəblərini araşdırmağı və bilməyi tələb edir. Dərslikdə təqdim edilən illüstrasiyalar, onlar üzərində qurulan iş, qoyulan istiqamətləndirici suallar bu nəticənin əldə edilməsinə şərait yaradacaqdır. Bunu sxemlə belə göstərmək olar:




Sxemdən də göründüyü kimi, tədris prosesinin düzgün qurulması, şagirdlərə yaş səviyyələrinə uyğun məlumatların verilməsi biliyin tədricən mürəkkəbləşdirilməsinə və standartların tələbinin düzgün yerinə yetirilməsinə imkan verir.

LAYİHƏ

Dərslikdə **məntiqi təfəkkürün inkişafı** üçün "təsvir et", "müqayisə et", "oxşarlıqları və fərqləri tap", "müəyyən et", "əlaqəni aşkar et", "sxem, qrafik, cədvəl düzəlt", "tərtib et", "təhlil et", "izah et", "nəticə çıxar", "səbəbi tap" kimi tapşırıqlar nəzərdə tutulub.

**Tənqidi təfəkkürün inkişafı** üçün "əhəmiyyətini, rolunu qiymətləndir", "səhvləri tap", "mübahisəli məqamları aşkar et", "düzgün olanı seç" tipli tapşırıqlar nəzərdə tutulmuşdur.

**Yaradıcı təfəkkürün inkişafı** üçün "tətbiq et", "problemi müəyyən et", "fərziyyələr irəli sür", "müqayisə et", "yarat", "tərtib et" kimi tapşırıqlar seçilmişdir.

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün nəzərdə tutulmuş Həyat bilgisi dərsliyi müvafiq fənn üzrə məzmun standartları əsas götürülərək hazırlanmışdır.

## Dərsliyin komponentləri və strukturu

"Həyat bilgisi" dərslik komplektinə daxildir:

1. Dərslik
2. Metodik vəsait

**Dərslik 6 bölmədən ibarətdir.**

I bölmə – "İnsan qrupları";

II bölmə – "Məktəbə gedərkən";

III bölmə – "Davranış mədəniyyəti"

IV bölmə – "Yaşadığımız dünya"

V bölmə – "Hüquqlar"

VI bölmə – "Sağlamlıq".

Hər bir bölmədə təqdim edilən məlumat və suallar 2-ci sinif şagirdlərinin yaş səviyyəsi əsas götürülərək hazırlanmış, dərsin daha səmərəli və effektli tədris edilməsi üçün süjetli rəsmlərlə, situativ illüstrasiyalarla zənginləşdirilmişdir. Bölmələrdə verilən materiallar məzmun baxımından qruplaşdırılmış, hər dərsin məzmunu və çatdırılacaq əsas fikir üzərində iş aparmaq üçün müxtəlif tapşırıqlar, suallar təqdim olunmuşdur. Təsvir və təqdim edilənlər əsasında şagirdlərin müstəqil fəaliyyətlə məşğul olması, məntiqi nəticələr əldə etməsi üçün perspektivli şərait yaradılmışdır. Tapşırıqlar hazırlanarkən məzmun standartlarının düzgün reallaşdırılması xüsusi olaraq diqqətdə saxlanılmışdır.

Dərslikdəki materiallar fənn kurikulumunun "Təbiət və biz", "Fərd və cəmiyyət", "Mənəviyyat", "Sağlamlıq və təhlükəsizlik" məzmun xətləri üzrə 15 əsas və 34 alt standartın tələblərinin reallaşdırılmasına yönəlmişdir. Nəzəri məlumatlarla praktik tapşırıqlar arasında vəhdət və mütənasibliyin gözlənilməsinə çalışılmışdır. Dərslik sadədən mürəkkəbə prinsipinin qorunması və şagirdlərə daha çox tanış olan mövzulardan başlamaqla işlənmişdir. Hər bir mövzuda da materiallar sadədən mürəkkəbə doğru ardıcıllıq prinsipinə əməl edilərək təqdim olunmuşdur. Təlim materiallarında elmilik, dəqiqlik, fəndaxili və fənlərarası inteqrasiyanın qorunması əsas prinsip kimi müəyyən edilmişdir.

Dərslik, əsasən, məntiqi düşüncəyə, mühakimə yürütməyə, tətbiqetməyə, fikir mübadiləsinə şərait yaradan suallar üzərində qurulmuşdur. Bu yanaşmanı tətbiq etməkdə müəlliflərin əsas məqsədi şagirdlərin biliyi hazır şəkildə deyil, müzakirə və fikir mübadiləsi əsasında əldə etməsini təmin etməkdir. Dərslikdəki tapşırıqların əksəriyyəti şagirdi müstəqil tədqiqat aprmağa, qazanılmış bilikləri tətbiq etməyə yönəldir, tənqidi təfəkkürün inkişafına yardımçı olur.

LAYİHƏ

Üzərində “Dərs” alqoritmi qeyd edlən səhifələr (müəllimin iştirakı ilə) dərsin izahı, “Tapşırıq” alqoritmi ilə işarələnən səhifələr isə şagirdlərin tək və qruplarla işi üçün nəzərdə tutulmuşdur.

Dərslik elə bir struktura malikdir ki, burada təqdim edilən bölmələrdəki tapşırıqları icra edən şagirdlər məzmunu mənimsəməklə yanaşı, müxtəlif mövzular və şəkillər vasitəsilə onu əhatə edən ətraf aləm haqqında da məlumat almış olur, həmçinin özləri də bu hadisə və proseslərin iştirakçısına çevrilirlər. Onlar düşünür, məsələlərə yaradıcı yanaşır, özləri araşdırır, nəticə əldə edir və qərar verməyi öyrənirlər. Bununla da, öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edən şagirdlərdə şifahi nitq qabiliyyəti formalaşır, sərbəst fikir yürütmək bacarığı, müstəqil nəticəyə gəlmək vərdişi inkişaf edir.

Dərslikdə şagirdlərin özlərini qiymətləndirməsi, təkcə öz davranış və baxışlarına deyil, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarına münasibət bildirməsi, həyati faktları təhlil etməsi üçün də tapşırıqlar verilmişdir. Fərdi qaydada icrası daha məqsədəmüvafiq olan bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm yaşıdlarını, həm də ətraf mühiti təhlil və tədqiq etməyə imkan verəcəkdir.

Müəllimlərin nəzərinə çatdırırıq ki, şagirdlərə şəkillər üzərində iş aparmaq 1-ci sinifdə də təklif olunmuşdu. Bu qayda 2-ci sinifdə də davam etdirilmişdir. Sualları cavablandırmaq üçün şəkillərdən istifadə, rəng çalarlarının cəlbediciliyi, şəkillər vasitəsilə çatdırılan fikrin müəyyən edilməsi, mövzu ilə bağlı rəsm və ya fotonun çəkilməsinin tapşırılması şagirdlərdə təsviretmə, əlaqələndirmə, müqayisəetmə kimi bacarıqların formalaşmasına da imkan yaradacaqdır.

1-ci sinifin Həyat bilgisi dərsliyində olduğu kimi, burada da uşaqların maraqlarını cəlb edəcək yeni, orijinal, xüsusi olaraq bu dərslik üçün yaradılmış personajlardan istifadə edilmişdir. Personajların ideya sahibi dərsliyin müəllifi Nərgiz Cabbarlı, rəssamı isə Kübra Binnətovadır. Bu personajlar – başqa planetdən gələn, dünyanı, Yer kürəsini öyrənməyə çalışan Muzi və ona bu yolda yardımçı olan, informasiya verən, ətraf aləmi dərk etməsinə və nəticə çıxarmasına kömək edən Kompdur (Kompüter). Dərslik boyu şagirdləri müşayiət edəcək bu obrazlar müzakirələrdə iştirak edəcək, nəticəyə gələ bilmələri üçün onlara istiqamət verəcəkdir. Müəllimlər də şagirdlərdə maraq oyatmaq məqsədilə dərs prosesində bu informasiyadan yararlana bilərlər.

Müəlliflər bu obrazlardan istifadə etməklə həm motivasiyanın qurulmasını, həm də nəticənin çıxarılmasını təmin etməyə çalışmışlar. Dərslikdə suallardan başqa, “Birlikdə edək” rubrikasında tapşırıqlar verilmişdir ki, bu da əldə edilən biliklərin tətbiqini özündə ehtiva edir. Bu tapşırıqlar Muzi və Kompun iştirakı ilə təqdim olunur. Beləliklə, şagirdlər Muzi və Kompun vasitəsilə bilik almaqla yanaşı, həm onu tətbiq etməyi öyrənir, həm də öyrəndiklərindən nəticə çıxara bilirlər.

Dərslikdə “Gəlin düşünək”, “Maraqlıdır”, “Sual və tapşırıqlar”, “Yaradıcı tapşırıqlar”, “Nəticə çıxaraq”, “Yaddaş kartı” kimi bloklar da vardır ki, onların da hər birinin xüsusi vəzifəsi vardır.

Dərslik maraqlı kompozisiya üzərində qurulmuşdur. Yer kürəsi və kosmosun qəhrəmanları özləri öyrənməklə yanaşı, şagirdləri də tədqiqata cəlb edir, onları da öyrənməyə həvəsləndirirlər.

Dərslikdə “Maraqlıdır” rubrikasında verilən məlumatlar şagirdlərə mövzu ilə bağlı əlavə, maraqlı informasiyaların verilməsi üçün nəzərdə tutulmuşdur. Müəllim bu rubrikadan istifadə edərək şagirdi əlavə araşdırmalar aparmağa sövq edə bilər. Hətta bu rubrikada təqdim edilmiş informasiyalar motivasiyanın qurulması üçün də yararlıdır. Seçim müəllimlərindir.

Dərslikdəki materiallar şagirdlərin yaş xüsusiyyətləri, təqdim olunan məlumatı qavrama bacarığı nəzərə alınaraq işlənmiş, şəkil, sual və tapşırıqlar psixoloqun rəyi diqqətə alınmaqla hazırlanmışdır.

Müəlliflər diqqət yetirmişlər ki, şagirdlər bölmələrdə öyrəndikləri biliklər əsasında araşdırmaya yönləndirilsinlər. Bununla da onlarda aparacaqları araşdırmalar əsasında, təklif olunan layihələr üzərində işləyərək öz bilik və bacarıqlarını təqdim etmək imkanı da meydana çıxmış olacaq.

LAYİHƏ

**I bölmə "İnsan qrupları"** adlanır. Bu bölmədə şagirdlərin ailə, ailə qrupları, kollektiv haqqında məlumatları dərinləşdirilir, onlar müxtəlif tapşırıq və suallar üzərində işə cəlb edilirlər. "Ailə güzgüsü" layihəsi isə şagirdləri praktiki işə cəlb edərək onların dərs prosesində öyrəndiklərini ümumiləşdirməyə xidmət edir. Bu bölmə vasitəsilə şagirdlərdə izahetmə, müqayisəetmə, araşdırma, ümumiləşdirmə və təqdimetmə bacarığının ilkin mərhələləri formalaşdırılacaqdır. Unutmaq olmaz ki, hər bir insanın özünü bir sosial varlıq olaraq reallaşdırması, bir tərəfdən, onun şəxsi keyfiyyətləri, əldə etdiyi bilik, bacarıq və dəyərlərlə bağlıdırsa, digər tərəfdən də yaşadığı və fəaliyyət göstərdiyi mühitdən – ailə, kollektiv və cəmiyyətdən asılıdır. Ona görə də şagirdlərə insan-cəmiyyət münasibətlərinin düzgün aşılanması vacibdir. Bu bölmədə təqdim edilən suallar, illüstrasiyalar, tapşırıqlar məhz bu məqsədə xidmət edir. Şagirdlər dərsdə fərd-ailə, insan-cəmiyyət münasibətlərini, bu münasibətlərin normal inkişafı üçün öz üzərlərinə düşən vəzifələrin nədən ibarət olduğunu öyrənəcəklər.

**II bölmə "Məktəbə gedərkən"** adlanır və bu bölmədə şagirdlərin məktəbə – tədris prosesinə başlayana qədər həyata keçirdiyi fəaliyyətlər üzərində ümumiləşdirmələr aparılır. Bu bölmə "Gün rejimi", "Nəqliyyat vasitələri", "Yol hərəkəti qaydaları", "Məktəb qaydaları" mövzularını əhatə edir. Mövzuların tədrisində əsas məqsəd məktəbə yola düşən şagirdin öz gün rejimini necə qurmalı olduğu, hansı gigiyena qaydalarına, qidalanma, yuxu rejiminə necə əməl etməli olduğu, gün ərzində təhsilinə, mütaliəyə, istirahətə, yuxuya, qidalanmağa, əyləncəyə nə qədər və hansı tərzdə zaman ayırmalı olduğu haqqında məlumat vermək, fikir mübadiləsi, təhlil, müzakirə əsasında bununla bağlı ən dəqiq bilikləri öyrətməkdir.

Bundan başqa, ikinci bölmədə şagirdlər cütlərlə, qruplarla iş vasitəsilə də müəyyən məntiqi nəticələr əldə edəcəklər. Bu bölmədə təqdim edilən illüstrasiyalar və onlarla bağlı müəyyən edilən suallar şagirdlərin gördüklərini təsvir və təhlil etməklə bilik əldə etməsinə, məntiqi və tənqidi təfəkkürünün inkişafına yardım edəcəkdir. Nəticədə, onlar evdə, küçədə, məktəbdə, ictimai yerlərdə, çöldə təhlükəsiz davranış qaydaları barədə bilgilər qazanacaq, təhlükələrdən və xoşagəlməz hallardan qorunma bacarığına yiyələnəcəklər. Həmçinin öz gündəlik həyatlarında bütün fəaliyyətlərə yetərli qədər zaman ayıra bilmək üçün gün rejimlərini qurmağı da bacaracaqlar. Bu vərdişə yiyələnə bilmələri isə onlara gələcək həyatlarında çox kömək edəcəkdir.

**III bölmə "Davranış mədəniyyəti"** adlanır və bu bölmədə "Nəzakət qaydaları", "Yaxşı xüsusiyyətlər", "Yanlış davranışlar", "Dinlər" mövzuları təqdim edilir. Dərsliyin bu bölməsi hazırlanarkən Həyat bilgisinin müxtəlif qabiliyyətləri özündə əks etdirən, həyati bacarıqlar öyrədən, şagirdin özünü psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsinə yardımçı olan interaktiv bir  fənn olduğu nəzərə alınmışdır. Şagirdlərdə mənəvi dəyərlərin fomalaşdırılması və onları dəyərləndirmə bacarığının tərbiyə edilməsi əsas istiqamətlərdən biri olduğu üçün bu dərslərdə də yazılı məlumatın verilməsinə deyil, situativ illüstrasiyalara və onların təsvirinə, təhlilinə, nəticələndirilməsinə daha çox yer ayrılmışdır.

Müəlliflərin düşüncəsinə görə, şagirdlər hələ aşağı siniflərdən etibarən mənəvi dəyərin nə olduğunu öyrənməli, bu istiqamətdə ən vacib biliklərə malik olmalıdırlar. Ona görə də müəllimlərə tövsiyə edilir ki, "mənəvi dəyər" anlayışını sinifdə işlətməkdən və izah etməkdən çəkinməsinlər.

Bölmədə şagirdlərə əvvəlcə nəzakət qaydaları öyrədilir, daha sonra yaxşı və yanlış davranışlar ardıcıllıqla təhlil olunur və bu mövzular inkişaf etdirilərək "Dinlər" mövzusu ilə yekunlaşdırılır. Dinlərin də toplum üçün dəyər olduğu, onların müxtəlifliyi, dini seçim məsələsində tolerant və dözümlü münasibətin vacibliyi kimi məsələlər müzakirə, təhlil vasitəsilə aydınlaşdırılır. Əxlaqın formalaşmasında dinin rolu, dinlərin ortaq və fərqli xüsusiyyətləri, əxlaqa təsiri bu bölmənin öyrətdiyi əsas biliklərdir. Nəticədə bölmənin sonunda şagirdlər düzlük, ədalətlilik, humanistlik, rəhmdillik xüsusiyyətlərinin nə olduğunu bilir, öz rəftarlarında bu xüsusiyyətləri nümayiş etdirir,

LAYİHƏ

həmin mənəvi dəyərlərə, xüsusiyyətlərə dində necə yanaşıldığını aydınlaşdırır, onların mahiyyəti barədə mülahizələrini şərh edə bilirlər.

**IV bölmə "Yaşadığımız dünya"** adlanır. Bu bölmədə "Canlılar aləmi", "Cansızlar", "Canlılara lazım olanlar", "Fəsillər", "Suyun dövranı", "Coğrafi obyektlər", "Üfüq", "Ətraf mühit" kimi mövzular tədris edilir. Bu mövzular da rəngarəng illüstrasiyalar, onların təsviri və təhlilinə istiqamət verən suallar vasitəsilə öyrədilir. Şagirdlər bu bölmədə canlı və cansız təbiətin nə olduğunu, bitkilər və heyvanlar aləmini, yaşamaq üçün canlılara lazım olanları, cansız təbii varlıqla insan əli ilə yaradılmış cansız əşyalar arasında fərqi və s. öyrənirlər. Mədəni və yabanı bitkilərin, ev heyvanları ilə vəhşi heyvanların fərqli xüsusiyyətləri haqqında ilkin biliklərə yiyələnirlər. Onları əhatə edən mühit, insanla təbiət arasında əlaqələr haqqında mülahizələr irəli sürməyi, insan fəaliyyətinin təbiətə təsirlərini qiymətləndirməyi bacarırlar. Şagidlərdə təbiətə sevgi və qayğı ilə yanaşmaq, təbiətlə təmasdan həzz almaq kimi keyfiyyətlər formalaşdırılır. Bunun üçün dərslikdə kifayət qədər praktik tapşırıqlardan istifadə edilmişdir. Müəllimlərə də bu dərslərin sinifdən daha çox təbiət qoynunda, zooparkda, ən azı, məktəb həyətində keçilməsi tövsiyə edilir. Praktik tapşırıqlar isə öyrədilən biliklərin şagirdlər tərəfindən daha effektli şəkildə mənimsənilməsinə şərait yaradacaqdır.

**V bölmə "Hüquqlar"** adlanır. "Uşaq hüquqları", "Dövlətin əlamətləri", "Pullar" və "Büdcə" mövzuları bu bölmədə tədris edilir. "Həyat bilgisi" dərsliyinin bu bölməsində şagirdlər mühakimə yürütmək, öz fikrini sərbəst ifadə etmək, öz hüquqlarını qorumaq və başqalarının hüquqlarını müdafiə etmək vərdişlərinə yiyələnməyin nə qədər əhəmiyyətli olduğunu öyrənəcəklər. Büdcə, gəlir və xərc anlayışları onlara ailə büdcəsi nümunəsində öyrədiləcək. Hətta şəxsi və ailə büdcələrini idarə etmək bacarıqlarına yiyələnə bilmələri üçün dərslikdə müəlliflər tərəfindən maraqlı bir layihə də təqdim edilib.

Ümumiyyətlə, müəlliflərin təqdim etdikləri layihələr müəyyən dərslərin mövzusu ilə bağlı olduğundan onlar üçün xüsusi saat ayrılmayıb. Yəni müəllimlər layihəni reallaşdırmaqla da təqdim edilən alt standartı reallaşdıra və dərsi izah edə bilərlər. Layihələr müəlliflər tərəfindən müəllimlərin dərsi daha dolğun, maraqlı keçmələri üçün əlavə seçim imkanı kimi nəzərdə tutulubdur.

Bundan başqa, şagirdlər bu bölmənin sonunda insan hüquqları və azadlıqları, dövlətin əlamətləri haqqında da əsaslı biliyə yiyələnəcəklər. Nəticədə onlar öz hüquqlarını dərk edə, başqalarının hüquqlarına hörmətlə yanaşa, əhatəsində olan insanlara həssas münasibət göstərə biləcək, bu məsələlərlə bağlı fikirlərini sərbəst ifadə edəcəklər.

**VI bölmə "Sağlamlıq"** adlanır. Bu bölmədə "Sağlam həyat", "Ehtiyat tədbirləri", "Təhlükəli avadanlıqlar", "Qəzalardan müdafiə" mövzuları tədris edilir. Sağlamlıq, həyat fəaliyyətinin təhlükəsizliyi, fövqəladə hallar və təbii fəlakətlər zamanı düzgün davranış qaydaları şagirdlərdə sistemli şəkildə formalaşdırılmalı olduğu üçün onlara bu bilik və bacarıqlar bölmədə ardıcıl şəkildə öyrədilir. Nəticədə hər bir şagird fövqəladə və təhlükəli hadisələr zamanı düzgün davranmağı, özünü və yaxınlarını mühafizə etməyi bacaracaq, insan həyatı və sağlamlığının qorunması ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını izah edə biləcəkdir. Dərslikdə bu bacarıqların vərdişə çevrilməsi üçün müxtəlif məzmunlu tapşırıqlar və təcrübi tapşırıqlar təqdim edilib.

## Layihələr

Dərsliyin hər bölməsindən sonra layihə verilib. Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsi deməkdir. Onları hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir, sinfə bunlardan birini seçmək imkanı verir.

LAYİHƏ

Layihələr həyata keçirilərkən problem konkret qoyulmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başaçatma müddətini, istifadə olunacaq əyani vasitələri, bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən etməlidirlər. İş prosesində müəllim suallara cavab verə və ya uşaqlara yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi müxtəlif formada (cədvəl, mətn, təqdimat, qrafik və s.) təqdim oluna bilər.

Dərslikdə təqdim edilən lahyihələr nümunə xarakterli olsa da, çox praktik və maraqlıdır. Şagirdlərin diqqətini çəkəcək və nəticə almalarına yardım edəcək, eyni zamanda evdə müstəqil araşdırma aparmalarına da şərait yaradacaqdır.

## Dərslikdəki yeniliklər

1-ci sinifdə olduğu kimi, 2-ci sinif "Həyat bilgisi" dərsliyi də yeni və orijinal konsepsiya əsasında işlənib. Bu konsepsiya dərsliyə estetik, maraqlı və rəngarəng görüntü verməkdən başqa, həm də şagirdlərin dünyagörünüşünə, təhlil və tətbiq bacarıqlarına, məntiqi və tənqidi təfəkkürünün inkişafına müsbət təsir göstərəcək şəkildə işlənilibdir. Dərslikdəki yardımçı obrazlar, onların fərqliliyi və orijinallığı, dərsin müxtəlif mərhələlərində fəal iştirakı şagirdlər üçün maraqlı olmaqla yanaşı, "bərabər fəaliyyət" konsepsiyası daxilində aktivliyini də təmin edəcək, həm də təxəyyüllərinin inkişafına yardım edəcəkdir.

Dərslikdəki daha bir yenilik müvafiq mövzularla bağlı şagirdləri əlavə tədqiqatlara, internet resurslarına yönəltmək üçün istifadə edilən QR kod (küar kod), animasiyalar, multimedia fayllarıdır. Bu fərqli yanaşma şagirdlərdə bu fənnə olan marağı artıracaq, onları təqdim olunan mövzuları daha dərindən öyrənməyə sövq edəcəkdir. Şagird dərsdən sonra telefon vasitəsilə QR kodları skan etməklə həmin materiallarla müstəqil şəkildə tanış ola biləcəkdir.

## Məzmun standartları və onların şərhi

Müəllimlər üçün nəzərdə tutulmuş metodik vəsait 2-ci sinfin "Həyat bilgisi" dərsliyi əsasında hazırlanmış, dərslərin qurulmasında, planlaşmanın tərtib edilməsində müəyyən istiqamətlər verilmişdir.

Bildiyiniz kimi, "Həyat bilgisi" fənnində 4 məzmun xətti vardır:

1. Təbiət və biz
2. Fərd və cəmiyyət
3. Mənəviyyat
4. Sağlamlıq və təhlükəsizlik

Bu məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır. Onlar özlərini bu aləmin bir hissəsi kimi dərk edir, təbiətdə və cəmiyyətdə müşahidə etdiyi hadisələri, dəyişiklikləri və bunlar arasındakı əlaqələri araşdırmaq, təhlil etmək, nəticələr çıxarmaq, proqnoz vermək, fikir və istəklərini düzgün ifadə etmək bacarıqlarına yiyələnirlər.

**"Təbiət və biz"** məzmun xətti şagirdlərdə canlı və cansız təbiət, cisim, maddə və müxtəlif hadisələr, bitkilər və heyvanlar aləmi, Yer kürəsi və burada gedən proseslər, insan fəaliyyətinin ətraf mühitə təsiri və ekologiya haqqında təsəvvür formalaşdırır.

LAYİHƏ

*Şagirdlər bacarmalıdırlar:*
* təbiəti sevmək, ona qayğı ilə yanaşmağı,
* təbiətdən istifadə mədəniyyətinə malik olmağı,
* ev heyvanlarına qulluq etməyi,
* dekorativ və mədəni bitkilərin becərilməsini,
* müşahidələr, ölçmələr, təcrübələr aparmağı,
* nəticələr çıxarmaq, onları yazılı və şifahi şəkildə təsvir etməyi.

**"Fərd və cəmiyyət"** məzmun xətti şagirdlərin özlərini sosial varlıq kimi dərk etmələrinə, cəmiyyətə adaptasiya üçün lazım olacaq zəruri bilik, bacarıq və dəyərlərə yiyələnmələrinə köməklik göstərir.

*Şagirdlər bacarmalıdırlar:*
- insanlararası münasibətləri öyrənməyi,
- insan və cəmiyyət münasibətlərini öyrənməyi,
- insan və dövlət münasibətlərini öyrənməyi,
- iqtisadi, sosial, siyasi və hüquqi prosesləri öyrənməyi və onlardan düzgün faydalanmağı.

**"Mənəviyyat"** məzmun xətti şagirdlərin özlərini mənəvi tərəfdən kəşf etməsinə, keyfiyyətləri və dəyərləri tanımasına, onlarda yüksək əxlaqi dəyərlər formalaşdırılmasına xidmət edir.

*Şagirdlər bacarmalıdırlar:*
- öz mənəvi haqq və vəzifələrini dərk etməyi, onları reallaşdırmağın yollarını mənimsəməyi,
- tolerantlığı,
- sərbəst düşünməyi,
- ailəyə, xalqa və dövlətə faydalı şəxsiyyət olmağı,
- əxlaqi keyfiyyətləri, hiss və duyğuları tanıtmağı və onları idarə etməyi,
- ədəb və davranış qaydalarını mənimsəməyi,
- dini dəyərləri düzgün dərk etməyi və mənəvi keyfiyyətlərin formalaşmasında dindən faydalanmağı, dinlə xurafat arasında fərqi ayırd etməyi.

**"Sağlamlıq və təhlükəsizlik"** məzmun xətti şagirdlərin sağlamlıq və təhlükəsizliklər ilə bağlı bilik və bacarıqlara sistemli şəkildə yiyələnməsini təmin edir.

*Şagirdlər bacarmalıdırlar:*
- sağlamlığı qorumaq üçün lazım olan gigiyenik tələbləri,
- sağlamlığın qorunması yollarını mənimsəməyi,
- müxtəlif infeksion və digər yoluxucu xəstəliklərdən qorunmağı və qorunma yollarını,
- təhlükəsizlik məsələlərinin rolunu dərk etməyi,
- problemlə üzləşdikdə onu şəxsi və cəmiyyət mənafeyinə uyğun şəkildə həll etməyi,
- fövqəladə və təhlükəli hadisələr zamanı düzgün davranmağı,
- özünü və yaxınlarını təhlükəli hadisələrdən mühafizə etməyi.

LAYİHƏ

**Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün**
**Həyat bilgisi fənni üzrə məzmun standartları**

II sinfin sonunda şagird:

- varlıq və hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır və müvafiq avadanlıqlardan sərbəst istifadə edir;
- coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir;
- canlılar aləminə aid olan varlıqları spesifik xüsusiyyətlərinə görə fərqləndirir;
- ətraf mühiti çirkləndirən mənbələri şərh edir;
- "fərd", "ailə" və "kollektiv" anlayışlarını, özünün ailədə və kollektivdəki vəzifələrini şərh edir;
- şəxsi büdcəsini tərtib edir və müvafiq hesablamalar aparır;
- dövlətin əlamətlərini tanıdığını nümayiş etdirir;
- məktəbdaxili nizam-intizam qaydalarını izah edir;
- özünün və yoldaşlarının hüquqlarını bilir;
- insanlararası ünsiyyət etiketlərinə dair bilik və bacarıqlarını nümayiş etdirir;
- şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətlərə münasibət bildirir;
- mənəviyyatın formalaşmasında dinin rolunu izah edir;
- müxtəlif dinlərin ümumi cəhətlərini şərh edir;
- insanlara qayğı göstərməyin mənəvi borc olması barədə fikirlərini şərh edir;
- mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- sağlam həyat tərzi və yoluxucu xəstəliklər barədə fikirlərini şərh edir;
- məişətdə və ətraf mühitdə insan sağlamlığı üçün zəruri olan təhlükəsizlik qaydalarını izah edir;
- təbii və texnogen qəzalardan mühafizə vasitələrini bilir.

LAYİHƏ

## Məzmun xətləri üzrə əsas və alt standartlar

### 1. Təbiət və biz

*1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.*
1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır.
1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir.
1.1.3. Suyun təbiətdə dövranını sadə şəkildə təsvir edir.

*1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.*
1.2.1. Coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir.
1.2.2. Üfüqün cəhətlərini təyin edir.

*1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.*
1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) təsvir edir.
1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir.

*1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.*
1.4.1. Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir.
1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir.

### 2. Fərd və cəmiyyət

*2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.*
2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışlarını fərqləndirir.
2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir.
2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir.

*2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.*
2.2.1. Gün rejiminin nümunəsində vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir.
2.2.2. Verilmiş şərtlərə uyğun şəxsi büdcəsini tərtib edir.
2.2.3. Milli pulla müvafiq hesablamalar aparır.

*2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.*
2.3.1. Dövlətin əlamətlərini (ərazi, ordu, milli pul, rəhbər, paytaxt) tanıyır.

*2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.*
2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarının mahiyyətini sadə formada izah edir.
2.4.2. Özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir.

### 3. Mənəviyyat

*3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.*
3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (yoldaşını təqdim etmək, hal-əhval tutmaq, təbrik etmək, kömək təklif etmək) əməl edir.
3.1.2. Etiketdənkənar davranışlara tənqidi münasibət bildirir.

LAYİHƏ

*3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.*

3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (mərhəmət, ailəyə və vətənə məhəbbət, düşmənə nifrət, səhvini etiraf etmək) şərh edir.

3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (kin, nifrət, laqeydlik) münasibət bildirir.

*3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.*

3.3.1. Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir.

3.3.2. Dinlərin ümumi cəhətlərini izah edir.

*3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.*

3.4.1. Mənəvi borc (dəstək olmaq, mərhəmət, şəfqət və yardım göstərmək) haqqında biliklərini izah edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

*4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.*

4.1.1. Sağlam həyat tərzi haqqında mülahizələrini şərh edir.

4.1.2. Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir.

*4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.*

4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, habelə alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini sadə formada təsvir edir.

4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri (gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları) sadalayır.

4.2.3. Zəruri yol hərəkət qaydalarını (piyada keçid nişanları olan və olmayan yerlərdə) izah edir.

4.2.4. Nəqliyyat vasitələrində (lift, eskalator, avtomobil, avtobus, qatar) təhlükəsizlik qaydalarını (minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq) izah edir.

*4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.*

4.3.1. Fövqəladə halları əlamətlərinə görə (təbii, texnogen) fərqləndirir.

4.3.2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqları nümayiş etdirir.

LAYİHƏ

# TƏLİM FORMALARI

Müasir dərs şagirdlərin tədqiqat aparmasına üstünlük verir. Yaradıcı müəllimlər şagirdi dərsdə maraqlandırmaq üçün müxtəlif strategiyalar müəyyənləşdirir, onlar üçün yaradıcı mühit yaratmağa, axtarış, araşdırma aparmağa sövq edirlər. Bu, müxtəlif təlim formaları: kollektiv, qruplar, cütlər vasitəsilə və fərdi qaydada həyata keçirilir. Təlim formaları müəllim tərəfindən dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir.

**Kollektivlə iş** zamanı kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur. Kollektiv işin tətbiqində bütün sinif problemin həllinə cəlb olunaraq müxtəlif fərziyyələr irəli sürür. Təfəkkürün inkişafına imkan yaradan bu proses həmçinin kollektivdə işləmə bacarığı formalaşdırır.

**Qruplarla iş** müəyyən problemi həll etmək üçün daha əlverişlidir.

Qrup işi şagirdlərdə birgə fəaliyyət, müzakirə etmək, fikir mübadiləsi aparmaq, vaxtdan səmərəli istifadə, mühakimə yürütmək və əməkdaşlıq etmək bacarıqlarını inkişaf etdirir. Şagirdlər (3-6 nəfər) kiçik qrupda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunurlar. Bu iş forması eyni zamanda başqalarını dinləməyə, özünün və digərlərinin işini qiymətləndirilməyə imkan yaradır. Bundan əlavə, onlar eyni bir məsələ ilə bağlı müxtəlif baxış və yanaşmaların olması barədə təsəvvürə yiyələnirlər.

**Cütlərlə iş** – şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır. Bu zaman onlar bir-birini daha yaxşı başa düşür, əməkdaşlıq edir və məsuliyyətlərini dərk edirlər.

**Fərdi iş** zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Bu forma fərdi olaraq şagirdlərin işə cəlb olunması, onların fərdi imkanlarının üzə çıxalması üçün əlverişli formadır. Bu zaman müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Nəzərə almaq lazımdır ki, təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır. Bunun üçün də müəllim dərsini düzgün planlaşdırmağı bacarmalıdır.

**Həyat bilgisi dərslərinin təşkilində istifadə olunması tövsiyə edilən üsullar**

İnteqrativ təlim mühüm pedaqoji problemdir. Bu təlim müasir dünyagörüşlü, fəal, yaradıcı, problemlərin həlli və müstəqil qərarlar qəbul etməyi bacaran şəxsiyyət formalaşdırılmasında əhəmiyyətli rola malikdir. İnteraktiv metodlar biliyi şagirdə hazır formada vermir. Bu metod şagirddə fərdi və ya qrup şəklində axtarmaq, tapmaq, toplamaq, məlumatı emal etmək bacarığının formalaşmasında əsas rol oynayır. Müəllim təlim prosesində daha çox təşkiledici, əlaqələndirici, istiqamətverici, şagirdlər isə təcrübəçi, tədqiqatçı, yaradıcı kimi fəaliyyət göstərirlər.

“Həyat bilgisi” dərslərində qaldırılan problemlərin həlli yolları üzərində düşünən şagirdin Müzakirə, Sual-cavab, Layihələr, Venn diaqramı, Şaxələndirmə, Auksion, BİBÖ, beyin həmləsi, rollar üzrə oyun və s. interaktiv metod və priyomlardan istifadə etməsi daha məqsədəuyğundur.

LAYİHƏ

## Mövzuların saatlar üzrə bölgüsü

Dərslikdə verilmiş tədris materialları 34 həftə (34 saat) üçün nəzərdə tutulmuşdur. Həyat bilgisi həftədə 1 saat tədris olunur.

## Planlaşdıma

Tədris prosesinin səmərəli olması və düzgün qurulması planlaşdırmadan asılıdır. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada bölmənin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi, hər bölməyə və mövzuya ayrılacaq vaxt, resurslar göstərilir.

İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartları, qiymətləndirmə standartları, tədris planı, dərslik (istifadə olunacaq mətnlər, mövzular və digər materiallar), metodik vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilməlidir.

## İnteqrativlik prinsipinin nəzərə alınması

Təlim prosesini təkmilləşdirməyə, fənlər arasında qarşılıqlı əlaqə və asılılığı dərinləşdirməyə xidmət edən inteqrasiyanın köməyi ilə şagirdlər biliklər arasında qarşılıqlı əlaqəni başa düşür, həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edirlər.

Fənlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verilir. Bu inteqrasiya təlim materiallarının digər fənlərin imkanları hesabına məzmun etibarilə genişlənməsinə, məsələlərin dərin təhlilinə və ümumiləşdirilməsinə xidmət edir.

*Fəndaxili inteqrasiya* anlayışların, mövzuların qarşılıqlı şəkildə əlaqəliliyinə diqqət yetirir.

Müəllimlər üçün perspektiv plan nümunəsi:

LAYİHƏ

## 2-ci sinif üçün Həyat bilgisi fənni üzrə illik planlaşdırma nümunəsi

| Sıra | Alt standartlar | Tədris vahidi | Mövzu | İnteqrasiya | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|---|---|
| 1. | | Diaqnostik qiymətləndirmə | | | | 1 |
| 2. | 2.1.1.<br>2.2.1.<br>2.1.3. | | Ailə<br>Layihə. Ailə güzgüsü | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 3. | 2.1.1.<br>2.1.2.<br>2.1.3. | İnsan qrupları | Kollektiv | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 4. | 2.2.1. | | Gün rejimi | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 5. | 4.2.4. | Məktəbə gedərkən | Nəqliyyat vasitələri<br>Layihə. Nəqliyyat ensiklopediyası | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 6. | 4.2.3.<br>4.2.4. | | Yol hərəkəti qaydaları | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 7. | KSQ | | | | | 1 |
| 8. | 3.1.1.<br>3.1.2.<br>2.4.1. | | Məktəb qaydaları | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 9. | 3.1.1.<br>3.1.2. | | Nəzakət qaydaları | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 10. | 3.2.1.<br>3.2.2.<br>3.4.1. | | Yaxşı xüsusiyyətlər | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 11. | 3.2.2. | Davranış mədəniyyəti | Yanlış davranışlar | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 12. | 3.3.1.<br>3.2.1. | | Dinlər | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| | 3.2.1. | | Zəfər çələngi<br>Layihə | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 13. | KSQ | | - | | - | 1 |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 14. | 1.3.1.<br>1.3.2. | Yaşadığımız dünya | Canlılar aləmi<br>Layihə. “Qırmızı kitab” | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 15. | 1.1.1. | | Cansızlar | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 16. | 1.1.1. | | Canlılara lazım olanlar | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 17. | 1.1.1.<br>1.1.2. | | Fəsillər | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 18. | 1.1.3. | | Suyun dövranı | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 19. | KSQ | | - | - | - | 1 |
| 20. | 1.1.2.<br>1.2.1. | Yaşadığımız dünya | Coğrafi obyektlər | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 21. | 1.2.2. | | Üfüq<br>Ətraf mühit<br>Layihə. “Xəzinə axtarışı” | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 22. | 1.4.1.<br>1.4.2. | | | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 23. | KSQ | | - | | - | 1 |
| 24. | 2.4.2. | Hüquqlar | Uşaq hüquqları | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 25. | 2.3.1. | | Dövlətin əlamətləri | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 26. | 2.2.3. | | Pullar | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 27. | 2.2.2.<br>2.2.3. | | Büdcə<br>Layihə. “Büdcəni idarə edirik” | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 28. | KSQ | | - | - | - | 1 |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29. | 4.1.1.<br>4.1.2. | Sağlamlıq | Sağlam həyat | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 30. | 4.3.2. | | Ehtiyat tədbirləri | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 31. | 4.2.2. | | Təhlükəli avadanlıqlar | | Formativ qiymətlərdirmənin üsul və vasitələri | 1 |
| 32. | 4.3.2.<br>4.3.3. | | Qəzalardan müdafiə | | Formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 33. | KSQ | | - | - | - | 1 |

LAYİHƏ

## Şagirdlərin qiymətləndirilməsinə dair tövsiyələr

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir.

**Məktəbdaxili qiymətləndirmə** diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun olaraq nailiyyətin qiymətləndirilməsi) qiymətləndirmələrdən ibarətdir.

*Diaqnostik qiymətləndirmə* müəllimin öz təlim strategiyasını müəyyənləşdirməsinə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıqvermə | Çalışma, sual, tapşırıq, şəkil üzərində iş |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Söhbət | Şifahi söhbət, sorğu-sual |
| Müşahidə | Gündəlik müşahidə |

Diaqnostik qiymətləndirmə keçirmək üçün müəllim seçdiyi standartlar əsasında təlim nəticələri, təlim nəticələri əsasında qiymətləndirmə meyarları müəyyənləşdirir, daha sonra qiymətləndirmə materialı hazırlayır.

**Məsələn:**

**Alt standartlar**

4.3.1. Fövqəladə halları əlamətlərinə görə (təbii, texnogen) fərqləndirir.

**Təlim nəticəsi:**

Təbii fövqəladə hadisələri fərqləndirir.

**Qiymətləndirmə meyarı:**

Fərqləndirmə

Dərslikdə bununla bağlı tapşırıqlar verilmişdir.

Məsələn:

**Sual: Şəkildə gördüyünüz əlaqə nömrələrindən nə zaman istifadə edilir? Hansı şəkildə avadanlıqdan ehtiyatsız istifadəyə görə yaranan təhlükə təsvir edilib?**

Verilən şəkillər əsasında şagird onları təsvir etməkdən başqa, hansının təbii, hansının texnigen qəza ola biləcəyi ehtimallarını irəli sürür. Eyni zamanda da bu cür qəzalar zamanı hansı nömrələrə zəng etməli olduğunu müəyyənləşdirir.

Diaqnostik qiymətləndirmənin nəticələri təhlil olunur, şagird portfoliosunda saxlanılır.

LAYİHƏ

## Formativ qiymətləndirmə

Formativ qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarındakı irəliləməni, geriləməni müşahidə etməyə, çatışmazlığı aradan qaldırmağa imkan verir. Müəllim formativ qiymətləndirməni həyata keçirmək üçün təlim məqsədlərini, daha sonra məqsədlər əsasında rubrikləri düzgün müəyyənləşdirməlidir. Rubriklər şagird fəaliyyətinin sözlü qiymətləndirməsidir.

Qiymətləndirmə apararkən aşağıdakılar diqqət mərkəzində saxlanmalıdır:

Nəyi qiymətləndiririk? (şagirdin bilik və bacarıqlarını);

Necə qiymətləndiririk? (müxtəlif üsul və vasitələrlə);

Kimi qiymətləndiririk? (şagirdi);

Qiymətləndirmənin nəticələri necə təhlil olunur? (cavablar yoxlanır, təlim nəticələrinin şagirdlər tərəfindən reallaşma səviyyəsi təhlil edilir (düzgün cavabların sayı, çatışmazlıq, müəllimin üzərində işləməli olduğu problem, daha çox diqqət yetirilməli məqamlar və s.), nəticələr diaqramlar vasitəsilə göstərilir;

Qiymətləndirmənin nəticələri necə emal olunur? (xarakterik səhvlər qruplaşdırılır, şagirdlərlə müzakirə olunur, müvafiq izahlar verilir);

Qiymətləndirmənin nəticələri barədə kimə məlumat verilir? (sinif rəhbərinə, valideynlərə, şagirdlərə).

Bilik və bacarıqların qiymətləndirilməsində bütün şagirdlərin diqqətdə saxlanması vacibdir. Formativ qiymətləndirmənin keçirilməsi üçün qiymətləndirmənin üsul və vasitələri düzgün seçilməlidir. Hazırlanan tapşırıqlar ölçülə bilən olmalıdır. Dərslikdə şagird bacarıqlarını ölçən müxtəlif tapşırıq modelləri vardır.

Summativ qiymətləndirmə kiçik və böyük olmaqla iki formada aparılır. Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və keçirildiyi tarixdə nəticələri sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır.

Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq, müəllim tərəfindən keçirilir. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərə alınır.

LAYİHƏ

# İNSAN QRUPLARI



1. AİLƏ 7
LAYİHƏ. AİLƏ GÜZGÜSÜ
2. KOLLEKTİV



LAYİHƏ

# 1. AİLƏ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.1.1. Fərd, ailə və kollektiv anlayışlarını fərqləndirir.<br>2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir. | | |
| **T.N.:** Fərd, ailə və kollektivin oxşar və fərqli cəhətlərini sadalayır. Ailə və kollektivdə hər kəsin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətini izah edir. | | |
| **İnteqrasiya:** Riy.: 1.1.6., 5.1.1., Azərb. d.: 2.1.1., İnf.: 2.2.2. | | |
| kollektivlə və kiçik qruplarla iş | təsviretmə, müzakirə | iş vərəqləri, rəngli kağızlar |

**I mərhələ.** Şagirdlərin diqqətini suyun, havanın, qidanın insan həyatındakı roluna yönləndirin. Məsələn, insanın havasız bir neçə dəqiqə, susuz bir neçə gün, qidasız isə bir neçə həftə yaşaması haqqında danışa bilərsiniz. Daha sonra su, hava, qida ilə yanaşı, insanların qayğıya, sevgiyə ehtiyacı olduğunu deyin. İnsan üçün vacib olan daha hansı anlayışların mövcud olduğunu soruşaraq "ailə" cavabını almağa çalışın. Motivasiyanı "Ən xoş xəbərlərinizi əvvəlcə kimlərlə bölüşürsünüz?", "Sizin ən çox qayğınızı kim çəkir?" kimi suallar verərək qura bilərsiniz.

**II mərhələ.** Şagirdlərin diqqətini mövzunun ilk səhifəsindəki şəkillərə yönəldərək ailələr arasındakı fərqi soruşun. Gördüyünüz kimi, şəkildə iki ailə modeli təsvir olunub. Şagirdlərə "Sizcə, hansı şəkildə kiçik, hansında böyük ailə təsvir olunub?", "Böyük ailələrdə nənə və babanın vəzifələri nədən ibarətdir?", "Ailədə sizin vəzifələriniz nədir?", "Kiçik ailə modelində heyvan təsvir olunub. Bu heyvana da lazımi qədər qayğı, diqqət göstəririksə, onu ailənin üzvü hesab edə bilərikmi?" və s. kimi suallarla müraciət edin. Müəllim dərsin gedişini bu şəkillər üzərində qurmalı, ailə mövzusu ilə bağlı qoyulan suallar əsasında cavablar almağa çalışmalıdır. Tədqiqat sualı olaraq **"Ailə üzvləri arasında vəzifə bölgüsü necə olmalıdır?"** müəyyən edilir.

**III mərhələ.** Vəzifə bölgüsü müəyyən edildikdən sonra şagirdlərin dərslikdəki suallarla sərbəst işləməsi üçün şərait yaradın. Məsələn, onların diqqətini dərslikdəki şəkillərə yönəldə bilərsiniz. Şəkillərdən birində xəstə nənə, digərində kiçik bacısının ayaqqabısının açılmış bağını bağlayan oğlan və s. təsvir olunub. Şagirdlərdə tənqidi təfəkkürün inkişafı və mülahizələrini sərbəst ifadə etmək bacarığının formalaşması üçün onlara şəkildəkiləri təsvir etməyi tapşırın. Ailə üzvləri arasında mövcud olan münasibətləri situasiyalar üzrə adlandırmalarını istəyin. Eyni məqsədə digər tapşırıqla da çata bilərsiniz (Şagirdlərdən ailə üzvləri arasında ünsiyyətin və səmimiyyətin vacibliyinə diqqət yönəldən şəkil və sual nəzərdə tutulur).

**IV mərhələ.** Bu mərhələdə uşaqların müstəqil işləməsinə bir daha şərait yaradıla bilər. Ailədə düzgün qərarların kim tərəfindən verildiyini müzakirə etmək olar. Qərarların düzgün verilməsində təcrübənin böyük rol oynadığı şagirdlərin diqqətinə çatdırılmalıdır. "Mühüm qərarların verilməsində sizin rəyinizi nəzərə alırlarmı?" sualı əsasında şagirdlərlə diskussiya aparmaq mümkündür.

**V mərhələ.** "Birlikdə edək" rubrikası ilə qruplarla iş həyata keçirə bilərsiniz. Şagirdləri müəyyən qayda ilə qruplara bölün. Müəyyən bir vaxt verərək əvvəlcədən hazırladığınız "qayğı", "səmimiyyət", "hörmət", "qəzəb", "hirs", "nifrət", "sevgi", "mehribanlıq" və s. yazılmış yarpaqları hər qrupa təqdim edin. Tapşırın ki, bu xüsusiyyətlərdən ailə üçün lazım olanı seçsinlər və kitabda təsvir edildiyi kimi, ailə ağacının üzərinə yapışdırsınlar. Bu zaman diqqəti kitab boyu "Birlikdə edək" rubrikasında uşaqlara yol göstərən Komp (Kompüter) və Muziyə yönləndirə bilərsiniz. Muzinin başqa planetdən gələn və Yer insanının həyatını öyrənməyə çalışan bir qəhrəman, Kompun isə ona Yer insanı ilə bağlı məlumatlar verən bir kompüter olduğu diqqətə çatdırılır.

**VI mərhələ.** Ailə modelləri – böyük və kiçik ailə haqqında danışıldıqdan sonra tamamilə fərqli bir ailə modelinin olduğu da ehtiyatla şagirdlərin diqqətinə çatdırılır. "Maraqlıdır" rubrika-

LAYİHƏ

sında hindli ailələrdən danışılır. Onlarda ailə anlayışının daha geniş olduğunu diqqətə çatdırın. Şagirdlərə "SOS" uşaq kəndləri haqqında da məlumat verə bilərsiniz. Valideynsiz uşaqların və ya nənə-baba himayəsində yaşayan uşaqların da ailə ola biləcəyindən söhbət açın. Onu da xüsusi olaraq qeyd edin ki, dövlətin himayə etdiyi bu müəssisələrdə yaşayan uşaqlar da özlərini ailədəki kimi hiss edirlər. Aşağıdakı resursu izləməklə həmin uşaqların yaşayış şəraitini izləyə bilərsiniz.

https://www.youtube.com/watch?v=v12t00KRvWks

**VII mərhələ.** Sonda belə nəticəyə gəlinir ki, birlikdə yaşayan və bir-biri ilə qohumluq əlaqəsi olan doğma insanlara ailə deyilir. Bu insanları bir-birinə sevgi, qayğı, hörmət, güvən kimi hisslər bağlayır. O da xüsusi olaraq qeyd edilir ki, ailədə hər kəsin yerinə yetirməli olduğu vəzifə var. Ailə qarşısında məsuliyyətli olmaq, ailə üzvlərinə qayğı və sevgi göstərmək, hörmətlə yanaşmaq, ev işlərində onlara yardım göstərmək hər birimizin vəzifəsidir.

**VIII mərhələ.** Şagirdlərə bu tapşırığı da verə bilərsiniz. Ailə üzvlərinin, adətən, yerinə yetirdiyi işlərin uyğunluğu oxlarla birləşdirilməlidir.

| | |
|---|---|
| 1. Baba | corab toxuyur. |
| 2. Nənə | babaya kömək edir. |
| 3. Ana | kommunal xidmətləri ödəyir. |
| 4. Ata | təmizlik işlərində kömək edir. |
| 5. Qardaş | yemək hazırlayır. |
| 6. Bacı | bağdakı ağaclara qulluq edir. |

Vəzifə bölgüsü ilə bağlı tapşırıq yerinə yetirildikdən sonra şagirdlərin seçimi üzərində müzakirə aparın. Bəzi vəzifələrin mütləq olaraq anaya (məsələn, evin təmizlənməsi, səliqə-sahman və s.) aid olduğu stereotipinin qırılmasına çalışın. Ailədə yardımlaşmanın əhəmiyyətli olduğunu diqqətə çatdırın.

**IX mərhələ.** Şagirdləri qiymətləndirin. Hər səviyyənin sütununda smaylik  və "+" işarəsi qoymaqla qiymətləndirmə apara bilərsiniz.

 – çətinliklə

 – qismən

 – orta səviyyədə

 – yüksək səviyyədə

Şagirdləri üzməmək üçün smayliklər nikbin seçilsə, daha yaxşı olar.

| № | Qiymətləndirilən bacarıqlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Ailə üzvləri arasında vəzifə bölgüsünü izah edir. | | | | |
| 2. | Ailə üzvləri arasında mövcud olan münasibətləri fərqləndirir. | | | | |
| 3. | Ailə, fərd anlayışlarını fərqləndirir. | | | | |

LAYİHƏ

# LAYİHƏ. AİLƏ GÜZGÜSÜ

| | |
|---|---|
| **Alt standartlar:** | 2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.<br>2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır. |
| **İş forması:** kiçik qruplarla iş | |
| **Resurslar:** rəngli karandaşlar, yapışqan, şəkillər, vatman kağızı, qayçı, rəngli kağız | |

Əvvəlcə motivasiyanın qurulması üçün “Biz mehriban ailəyik” mahnısına qulaq asılır. Ailələr haqqında diskissiya aparılır. Müxtəlif ailə modellərinin olduğu xüsusi olaraq vurğulanır.

Dərslikdə “Müəllimin mətni” rubrikasında verilmiş sözlər yardımçınız ola bilər.

Daha sonra şagirdlərə müraciət edilərək: “Gəlin birlikdə müxtəlif ailə güzgüləri (modelləri) düzəldək”, – deyilir. Uşaqlara güzgü anlayışı ilə bağlı da müəyyən izahat vermək lazımdır. “Ailə güzgüsü”nün müxtəlif ailələri bizə tanıtmaq, göstərmək kimi bir funksiyası olduğu diqqətə çatdırılmalıdır.

**İstifadə etmək üçün sizə** rəngli karandaşlar, yapışqan, şəkillər, vatman kağızı, qayçı, rəngli kağız lazımdır.

**I mərhələdə şagirdlər** qruplara bölünür. Hər bir qrup ayrılıqda ailə güzgüsü yaradacaqdır: “Kiçik ailə”, “Geniş ailə” və “Ailə kəndləri”.

**II mərhələdə** şagirdlər “Ailə güzgüsü” düzəltmək üçün vatman kağızı götürür, onun üzərində müxtəlif formalı güzgü şəkli çəkir və kənarlarını bəzəyirlər. Güzgünü ailə üzvlərinin sayına görə (kiçik, böyük ailələr və ailə kəndləri bölgüsündən asılı olaraq) çəkməli olduqlarını şagirdlərin diqqətinə çatdırın. Şəkillər arasında hansısa canlıların ola biləcəyi də müzakirə edilsin. Çünki müasir ailə modellərində bəzən it, pişik, balıq, tutuquşu kimi canlıların da ailənin bir fərdi kimi dəyərləndirilməsi müşahidə edilir. Şagirdlərə xatırladın ki, əgər belə düşünürləsə, bu canlıların da şəklini güzgüyə əlavə edə bilərlər. Əgər bu cür düşünməyənlər varsa, onların da fikirlərini əsaslandırmasını istəyə bilərsiniz. Şəkillər şərti olmalıdır: ana, ata, bacı, qardaş, nənə, baba və s.

**III mərhələ.** Çəkilmiş güzgülərin içərisinə ailə üzvlərinin şəkilləri yapışdırıldıqdan sonra qruplardan onları nümayiş etdirməsini və ailə haqqında məlumat verməsini istəyin. Hər qrupda 5 şagird olarsa, şəkillərin minimum sayı 15 olacaq. Qruplar hazırladıqları “güzgü”ləri sinif otağından asa da bilərlər.

**IV mərhələ.** Layihələri aşağıdakı meyarlar üzrə qiymətləndirmək olar.

| Qrup / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Ailə üzvlərini tanıyır. | | | | |
| Ailə üzvlərinin vəzifələrini bilir. | | | | |
| Əməkdaşlıq edə bilir. | | | | |
| Vaxtdan səmərəli istifadə etməyi bacarır. | | | | |

LAYİHƏ

# 2. KOLLEKTİV

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.1.1. Fərd, ailə və kollektiv anlayışlarını fərqləndirir.<br>2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir.<br>2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir. | | |
| **T.N.:** 1) Fərd, ailə və kollektivin oxşar və fərqli cəhətlərini sadalayır.<br>2) Ailə və kollektivdə hər kəsin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətini izah edir. | | |
| **İnteqrasiya:** İnf.: 2.2.2., 3.3.4., Riy.: 1.1.6., 5.1.1., Azərb. d.: 2.1.1. | | |
| kollektiv və kiçik qruplarla iş | müzakirə, beyin həmləsi | dərslik, iş vərəqləri, orkestrin ifa etdiyi musiqi |

**I mərhələ.** Motivasiyanı dərslikdəki şəkillər üzərində qurmaq mümkündür. Şəkillərdə müxtəlif kollektivlər təsvir edilib. Fəaliyyət sahələri müxtəlif olsa da, onların hər birində birgə iş aparıldığı görünür. Bu isə kollektiv anlayışını izah edən əsas xüsusiyyəti – birgə əməyin qeyd edilməsinə şərait yaradacaq.

**II mərhələ.** Şagirdlərlə birlikdə dərslikdə olan müxtəlif kollektivlərin maraqlarını və fəaliyyət sahələrini müəyyənləşdirin. Daha sonra tədqiqat sualı çıxarıla bilər: "**Kollektivdə vəzifə bölgüsünün əhəmiyyəti nədir?"**

**III mərhələ.** Şəkillərdə təsvir edilmiş kollektivlərin ümumi məqsədləri haqqında təsəvvürün formalaşması üçün suallar verin. "Məhsulu daha sürətlə necə yığmaq olar?", "Məktəb binasını yeni təhsil ilinədək hazır etmək üçün işçi kollektiv nə etməlidir?", "Musiqi yarışmasında qalib olmaq üçün musiqi alətlərində ifa edənlərin  və müğənninin birgə əməkdaşlığı vacibdirmi?", "Musiqi düzgün və gözəl səslənsin deyə hər bir kollektiv üzvündən nə tələb olunur?", "İş zamanında və keyfiyyətlə görülsün deyə birlikdə çalışanlar hansı şərtlərə əməl etməlidirlər?" və s. sualları verməklə aşağıdakı cavabları almağa çalışın:

1. Birlikdə və həvəslə çalışmaq.
2. Birlikdə və işdən yayınmadan çalışmaq.
3. Musiqi kollektivində əməkdaşlıq və birlikdə fəaliyyət olmasa, musiqi əvəzinə qarışıq səslər ifa edilər.
4. Kollektiv üzvlərinə yardım göstərmək, çətin işlərin öhdəsindən birlikdə gəlmək.

Şagirdlər şəkillərdə təsvir olunmuş kollektivlərin məqsədlərini, məqsədlərinə çatmaq üçün kollektiv üzvlərinin vəzifələrini analiz edərək müəyyənləşdirməlidirlər. Siz yönləndirici suallar verərək də yuxarıdakı cavabları almağa çalışa bilərsiniz. Daha sonra şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, bir sinifdə oxuyan şagirdlər kollektiv adlandırılır və adətən, eyni kollektivdə olan insanların vəzifələri müxtəlif olsa da, məqsədləri eyni olur. "Kollektivdə sizin vəzifələriniz nədən ibarətdir?", "Bir sinif olaraq sizin məqsədiniz nədən ibarətdir?" kimi sualların verilməsi ilə ümumiləşdirmə aparmaq mümkündür.

**IV mərhələ.** Tədris edilən dərsin necə qavranıldığını yoxlamaq üçün dərslikdə verilmiş tapşırıqlardan istifadə edə bilərsiniz. Məsələn, "Birlikdə edək" rubrikasında kollektivlə iş formasında işləmək mümkündür. Tapşırıqda müxtəlif fəaliyyət növləri təqdim edilib. Şagirdlər onlardan hansının fərdi, hansının kollektiv fəaliyyət forması olduğunu müəyənləşdirməlidirlər. Dərslikdə verilmiş siyahını özünüz də davam etdirə bilərsiniz. Şagirdlərin bu tapşırıqları müstəqil işləməsinə şərait yaradın.

Piano çalmaq  – fərdi
Dərs oxumaq – fərdi
Sinfi səliqəyə salmaq – kollektiv

LAYİHƏ

Ev tikmək – kollektiv
Yazıçı olmaq – fərdi
Xorda oxumaq – kollektiv

Şagirdlərə belə bir sual da ünvanlamaq mümkündür: "Fərdi fəaliyyət formalarını kollektiv fəaliyyət formalarına çevirmək olarmı?" Onların bununla bağlı nümunələr səsləndirməsinə nail olun. Yol verdikləri səhvləri aradan qaldırın.

**V mərhələ.** Dərsdə qruplarla da (kiçik qruplar ola bilər) iş apara bilərsiniz. Qrupların verdiyiniz suallar ətrafında müzakirələr aparaaraq ümumi nəticəyəə gəlməsinə nail olun.

**I qrup.** Sinfinizin futbol komandası var. Bu komandanın əsas məqsədi nədir və ona çatmaq üçün əməl etməli olduğunuz hansı vəzifələr var?

**II qrup.** Sinif də kollektivdir, burada hansı vəzifə bölgüsü aparıla bilər? Fikirlərinizi əsaslandırın.

**III qrup.** Gəzintiyə gedən kollektivdə hansı vəzifə bölgüsü ola bilər və qaydalar necə olmalıdır?

**IV qrup.** Fərd, ailə və kollektivin oxşar və fərqli cəhətlərini izah edin. Ailə və kollektiv arasında hansı oxşarlıqlar var?

**VI mərhələ.** Kollektivlə digər bir işi isə "mətnin tamamlanması" tapşırığı üzrə apara bilərsiniz. Şagirdlərə açar sözlərdən istifadə edərək mətni tamamlamağı tapşırın. Açar sözlər: baytar, sağıcı, çoban. Əgər ehtiyac yaranarsa, baytar sözünün mənasını izah edə bilərsiniz.

1. Fermada heyvanların sağlamlığına ....................... nəzarət edir.
2. .................. heyvanları otarmağa aparır.
3. .................. inəkləri sağır.
4. ..... şəhər əhalisini süd və süd məhsulları ilə təmin edir.

Sonda şagirdlərdən mətndə verilmiş kollektivin məqsədini tapmalarını istəyin.

**VII mərhələ.** Şagirdlərdə mövzuya maraq oyatmaq üçün "Maraqlıdır" rubrikasından yararlanın. Dərslikdə təqdim edilmiş bu rubrika sizə motivasiya qurmaq üçün da yardımçı ola bilər. Məsələn, bu dərsin nümunəsində siz sinifdə texniki imkanlarınız varsa, "Qaval daşı" cizgi filmini nümayiş etdirə bilərsiniz. İnsanların hələ qədimlərdən kollektiv şəkildə ən çətin işlərin öhdəsindən gəldiklərini izah edərək dərsə başlamaq olar. https://www.youtube.com/watch?v=Se-uP-CJ7ZZc Bu zaman fikirlərinizi əsaslandırmaq üçün Qobustandakı qaya rəsmlərindən, kollektiv rəqs edən qədim insan şəkillərindən də əlavə vəsait kimi istifadə edə bilərsiniz. Yaxud dərsin gedişində bu məlumatı əlavə maraqlı informasiya və ya araşdırma mövzusu kimi də dəyərləndirə bilərsiniz.

**VIII mərhələ.** Dərsin nəticə hissəsində qeyd edin ki, birlikdə çalışan, birlikdə oxuyan, bir çox fəaliyyətləri müəyyən bir məqsəd naminə birlikdə icra edən insanları kollektiv adlandırırlar.

**IX mərhələ.** Qiymətləndirmə aparın. Hər səviyyənin sütununda smaylik 🙂 və müəyyən bal qoymaqla şagirdləri qiymətləndirin.

| № | Qiymətləndirilən bacarıqlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | "Fərd", "ailə" və "kollektiv" anlayışlarını fərqləndirir. | | | | |
| 2. | Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir. | | | | |
| 3. | Kollektivdə olan məqsəd və birliyi izah edir. | | | | |

LAYİHƏ

# MƏKTƏBƏ GEDƏRKƏN

3. GÜN REJİMİ
4. NƏQLİYYAT VASİTƏLƏRİ

LAYİHƏ. "NƏQLİYYAT" ENSİKLOPEDİYASI

5. YOL HƏRƏKƏTİ QAYDALARI
6. MƏKTƏB QAYDALARI





LAYİHƏ

# 3. GÜN REJİMİ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.2.1. Gün rejiminin nümunəsində vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir. | | |
| **T.N.:** Vaxtdan səmərəli istifadə etməyin vacib olduğunu göstərə bilir. | | |
| **İnteqrasiya:** Riy.: 4.1.1., 5.2.2. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə | dərslik, saat, iş vərəqləri, gün rejiminə aid şəkillər |

**I mərhələ.** Mövzu ilə bağlı motivasiyanı yaratmaq məqsədilə "vaxtdan səmərəli istifadə etmək, hər işə vaxt çatdırmaq üçün nə etmək olar" sualından istifadə edə bilərsiniz. "Gün rejiminə düzgün əməl etməsək, nə baş verər?", "Əgər gün rejimindən kənara çıxsaq, itirdiyimiz vaxtı geri qaytara bilərikmi?", "Nə üçün gün rejiminə əməl etməliyik? Bunun əhəmiyyəti nədir?" sualları ilə də şagirdlərə müraciət etmək mümkündür. Dərslikdə motivasiyanın qurulmasına və dərsin izah edilməsinə yardım edəcək illüstrasiyalar təqdim edilib. Müxtəlif fəaliyyətləri əks etdirən bu şəkillər üzərində işləməklə də uğurlu bir dərs qurmağa nail ola bilərsiniz. Seçim sizindir.

**II mərhələ.** Çalışın, dərslikdə verilən şəkilləri şagirdlər "məktəbə qədər" və "məktəbdən sonra" olmaqla, iki qrupa bölsünlər. Bu onlara günlərini planlaşdırmağa da kömək edəcək. "Hansı hadisələr gün ərzində iki və ya daha çox təkrarlanır?" sualı ətrafında da iş apara bilərsiniz. Hər dəfə təkrarlanan bu fəaliyyətlərə nə qədər zaman sərf edildiyi də mütləq qeyd edilsin. "Bu işlərin hər birinə nə qədər vaxt sərf edirsiniz?", "Normal yatmaq, qidalanmaq və istirahət etmək üçün vaxt ayırmaq nə üçün vacibdir?" sualları sizin yardımçınız olacaq. Bu suallardan sonra əsas tədqiqat sualı müəyyənləşdirilə bilər: "Gün rejiminə əməl etməsək, nə baş verər?"

**III mərhələ.** Tədqiqatı böyük qruplarla aparın. Vaxta qənaət etmək üçün qruplara bölünmə üsulu əvvəlcədən müəyyən edilsə, yaxşıdır. Daha sonra qruplara tapşırıqlar verilə bilər.

**I qrup**. Məktəblinin dərs və tətil zamanı riayət etməli olduğu gün rejimini müqayisə edin.

**II qrup**. Hesablayın. Şagird yuxu normasına dəqiq əməl etmək üçün axşam saat neçədə yatmalı, səhər neçədə qalxmalıdır?

**III qrup.** Dərsə gedən məktəbli üçün gün rejimi qurun.

Məlumatın mübadiləsini müzakirəli şəkildə təşkil edin. Hər qrup öz işinin nəticələri haqqında məlumat versin.

**IV mərhələ.** Kollektiv iş üçün ən yaxşı nümunə dərslikdə "Birlikdə edək" rubrikasında verilən "Rejim saatı" düzəldək" tapşırığı ola bilər. Muzi və Kompun göstərdiyi kimi, şagirdlər şəkilləri əqrəblər arasına yerləşdirməlidirlər. Dərslikdə verilmiş şəkilləri söz birləşmələri ilə də əvəz etmək olar. Bu tapşırıq əsasında siz bütün sinfi fəaliyyətə cəlb edə bilərsiniz.

**V mərhələ.** Dərslikdə şagirdlərdə məntiqi və tənqidi təfəkkürün inkişafına xidmət edəcək bir sıra tapşırıqlar verilib. Məsələn, 15-ci səhifədə qeyd edilən 1-ci sualı – "Hansı qız dərsə gecikə bilər?" verməklə "Zəngli saatın düyməsini basıb yatan qız vaxtında dərsə yetişməyəcək" cavabını şagirdlərdən ala bilər, eyni zamanda da onların öz fərziyyələrini söyləməsi və əsaslandırması üçün şərait yaratmış olarsınız.

**VI mərhələ.** Şagirdlərlə "Dərs hazırlamaq üçün nə qədər zaman sərf etsəniz, daha yaxşı nəticə əldə edə bilərsiniz" sualı ətrafında da müzakirə aparsanız, yaxşı olar. Bu zaman məqsəd onlardan eyni cavabın alınması yox, nəticə əldə etmək üçün dərsə daha çox vaxt ayırmağın vacibli-

LAYİHƏ

yinin diqqətə çatdırılmasıdır. Əsas nəticə dərslərə hazır olmaqdır. Bunun üçün kiminə 1, kiminə 3, kiminə isə daha çox saat lazım ola bilər. Bu sual ətrafında müzakirə aparmaqla siz şagirdin məntiqi və tənqidi təfəkkürünü hərəkətə gətirməklə öz bacarıqlarını dəyərləndirməsi üçün də şərait yaratmış olacaqsınız.

**VII mərhələ.** Dərsliyin "Maraqlıdır" rubrikasında Nəsrəddin Tusinin rəsədxanasında olan saatlar və rəsədxana haqqında məlumat vermək olar. https://portal.azertag.az/az/node/5531 Bundan əvvəlki dərsdə qeyd etdiyimiz kimi, siz bu materialdan motivasiyanın qurulması üçün də istifadə edə bilərsiniz.

**VIII mərhələ.** Nəticə və ümumiləşdirmə aparın. Şagirdlər bu nəticəyə gəlməlidirlər ki, işlərimizi vaxtında yerinə yetirmək üçün vaxt bölgüsündən düzgün istifadə edilməli, gün rejiminə diqqət göstərilməlidir.

**IX mərhələ.** Müəllim hər səviyyənin sütununda smaylik  və "+" işarəsi qoymaqla şagirdləri qiymətləndirə bilər.

| № | Qiymətləndirilən bacarıqlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir. | | | | |
| 2. | Gün rejiminin faydasını izah edir. | | | | |
| 3. | Gün rejimini tərtib edə bilir. | | | | |

LAYİHƏ

## 4. NƏQLİYYAT VASİTƏLƏRİ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 4.2.4. Nəqliyyat vasitələrində (lift, eskalator, avtomobil, avtobus, qatar) təhlükəsizlik qaydalarını (minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq) izah edir. | | |
| **T.N.:** 1) Nəqliyyat vasitələrində davranış qaydalarını izah edir. 2) Yol hərəkəti qaydalarına əməl etməyin təhlükəsiz həyat üçün vacib olduğunu izah edir. | | |
| **İnteqrasiya:** İnf.: 2.1.3., Riy.: 5.2.2. | | |
| kollektiv, böyük qruplarla iş | beyin həmləsi, rollu oyun | iş vərəqələri, yol nişanları təsvir olunmuş şəkillər |

**I mərhələ.** Motivasiya yaratmaq məqsədilə lövhədə müxtəlif nəqliyyat vasitələrinin şəkilləri nümayiş etdirilir. Aşağıdakı suallarla şagirdlərə müraciət etmək olar: "Məktəbə getdiyiniz zaman hansı nəqliyyat vasitələrindən istifadə edirsiniz?", "Şəkillərdəki vasitələri necə adlandıra bilərsiniz?", "Onları necə qruplaşdıra bilərik?" və s. Şagirdlərin cavabları dinlənilir.

**II mərhələ.** Bu suallara cavablar alındıqdan sonra növbəti müzakirələr tədqiqat sualının formalaşmasına istiqamətlənməlidir. Nəqliyyatdan istifadə zamanı hansı qaydalara əməl olunması barədə bəzi məlumatlar verilməli və araşdırma aparılmalıdır. Aşağıdakı yönəldici suallardan istifadə edə bilərsiniz:

– Avtobusa hansı qapıdan minmək lazımdır?
– Avtobusda, avtomobildə qolunu, əlini, başını pəncərədən çıxarmaq düzgündürmü?
– Eskalatorda hansı istiqamətdə dayanmalısınız?

Sonra tədqiqat sualı çıxarılır: "Nəqliyyatdan istifadə edən zaman hansı qaydalara əməl etmək lazımdır?"

**III mərhələ.** Tədqiqata başlamazdan əvvəl qeyd edin ki, sinif qruplarla işləyəcək. Sinfi uyğun şəkildə qruplara bölün. Tapşırıq üçün müəyyən vaxt verin və yerinə yetirildikdən sonra mübadilə üçün şərait yaradın. Siniflə bərabər nəticələr üzərində müzakirə aparın.

**I qrup.** Hər hansı bir nəqliyyat vasitəsində təhlükəsizlik qaydalarının pozulmasına aid rollu oyun oynayın.

**II qrup.** Motorlu qayıqda gedərkən təhlükəsizlik qaydalarının necə ola biləcəyi haqqında düşünün və ehtimallarınızı yazın.

**III qrup.** Nəqliyyatda gedərkən təhlükəsizlik qaydalarının pozulmasına aid rəsm çəkin.

**IV mərhələ.** Mübadilə mərhələsində dərslikdə verilmiş növbəti tapşırığa keçə bilərsiniz. Bu tapşırıq kollektiv şəkildə də icra oluna bilər.

Təsvir edilmiş nəqliyyat vasitələrini çərçivədə verilən sözlərlə birləşdiririk.



yerüstü nəqliyyat | yeraltı nəqliyyat | hava nəqliyyatı | su nəqliyyatı

LAYİHƏ

Bu tapşırığı siniflə birlikdə işləyin. Şəkillərin və variantların sayını artıra bilərsiniz.

**V mərhələ.** Daha bir tapşırığı siniflə birlikdə işləmək olar. Bu tapşırıq şagirdlərdə maraq yaradacaq. Əvvəlcə "lift", "eskalator", "kanat", "at", "dəvə", "at arabası", "fayton" sözlərini səsləndirərək şagirdlərdən onları qruplaşdırmasını istəyin. Daha sonra onlardan hansının daha qədim olduğunu, hansı nəqliyyat vasitələrinin bu gün işlədilmədiyini soruşun və səbəbi ilə bağlı öz fərziyyələrini söyləmələrini istəyin. Qənaətləri ümumiləşdirin.

**VI mərhələ.** "Maraqlıdır" rubrikasında hava şarları haqqında məlumat verilib. Siz bu məlumatdan motivasiya qurmaq üçün də istifadə edə bilərsiniz. Eyni zamanda onu ev tapşırığı olaraq da dəyərləndirməyiniz mümkündür. Məsələn, şagirdlərə hava şarları haqqında məlumat toplamaq tapşırıla bilər.

**VII mərhələ.** Komp və Muzinin təqdimatı ilə verilən növbəti tapşırığı bütün siniflə birlikdə işləyə bilərsiniz.

**Nəqliyyatdan istifadə zamanı yanlış olanları müəyyən edək.**

1. Eskalatorda qaçmaq.
2. Liftin düymələri ilə oynamaq.
3. Avtobusun ön qapısından minmək.
4. Avtobusun arxa qapısından minmək.
5. Nəqliyyat vasitəsinin pəncərəsindən başını, qolunu çıxarmaq.
6. Avtobusdan düşdükdən sonra qarşısından keçmək.
7. Liftin içərisində atılıb-düşmək...

Şagirdlər düzgün və səhv fikirləri seçməlidirlər. Siyahını özünüz də artıra bilərsiniz.

**VIII mərhələ.** Beləliklə, fikirlər ümumiləşdirilərək belə nəticə əldə edilir ki, nəqliyyatdan istifadə zamanı müəyyən qaydalara əməl etmək lazımdır. Bu qaydalar insanların öz təhlükəsizliyi üçündür.

**IX mərhələ.** Qiymətləndirməni hər səviyyənin sütununda smaylik  və "+" işarəsi qoymaqla apara bilərsiniz.

| № | Qiymətləndirilən bacarıqlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Nəqliyyat vasitələrində davranış qaydalarını izah edir. | | | | |
| 2. | Yol hərəkəti qaydalarına əməl etməyin təhlükəsiz həyat üçün vacib olduğunu izah edir. | | | | |

LAYİHƏ

## LAYİHƏ: "NƏQLİYYAT" ENSİKLOPEDİYASI

| | |
|---|---|
| **Alt standart:** 4.2.3. Zəruri yol hərəkəti qaydalarını izah edir. | |
| **İş forması:** kiçik qruplarla iş | |
| **Resurslar:** albom, şəkillər, yapışqan, qayçı, rəngli karandaşlar | |

**I mərhələ.** Motivasiya qurmaq üçün dərsə "Yol" mahnısı ilə başlaya bilərsiniz.

**II mərhələ.** Bu dərs saatı havada, suda, quruda, yerin altında işləyən nəqliyyat vasitələrinin tarixən dəyişməsini və inkişaf prosesini öyrənməyə əsaslanır. Layihə daha çox tədqiqat xarakteri daşıyır. Mövzu üçün bir saat ayrıldığı üçün şagirdlərə öncədən tapşırıqlar verə bilərsiniz. Qrupların da əvvəlcədən müəyyənləşdirilməsi daha yaxşıdır.

**III mərhələ.** Şagirdləri qruplara ayırdıqdan sonra topladıqları məlumatlar əsasında nəqliyyat ensiklopediyası yaradacaqlarını bildirin.

**IV mərhələ.** Şagirdlər ensiklopediyanı düzəldərkən məlumatları dəqiqləşdirərək onlara kömək edə bilərsiniz. Azərbaycanda ilk avtomobillərin şəkillərindən də istifadə etmək tövsiyə olunur.

**V mərhələ**. Şagirdlər əvvəlcədən seçdikləri şəkilləri qayçı ilə kəsib alboma yapışdırırlar. Xüsusilə diqqət yetirin ki, şəkillər keçmişdən müasirə doğru sıralanmaqla yapışdırılsın. Bununla nəqliyyat vasitələrinin necə bir dəyişikliyə uğradığını izləməyin daha maraqlı olacağını şagirdlərin diqqətinə çatdırmağı unutmayın.

**VI mərhələ.** Şagirdlər hazırladıqları ensiklopediyanı sinifdə nümayiş etdirə bilərlər. Bu zaman mütləq yol verdikləri yanlışlıqlara, səhvlərə diqqət yetirin və onları düzəldin.

**VII mərhələ.** Bu dərsdə də şagirdləri aşağıdakı meyarlar əsasında qiymətləndirə bilərsiniz.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Təqdimatda bütün qrup üzvləri iştirak etdi. | | | | |
| Təqdimat düzgün aparıldı. | | | | |
| Təqdimatçı fikirlərini aydın və dəqiq ifadə etdi. | | | | |
| Mövzu ilə bağlı düzgün məlumat əks olundu. | | | | |
| Təqdimatın hazırlanmasında sistemlilik gözlənildi. | | | | |

LAYİHƏ

# 5. YOL HƏRƏKƏTİ QAYDALARI

| | |
|---|---|
| **Alt standartlar:** 4.2.3. Zəruri yol hərəkəti qaydalarını (piyada keçidi nişanları olan və olmayan yerlərdə) izah edir.<br>4.2.4. Nəqliyyat vasitələrində (lift, eskalator, avtomobil, avtobus, qatar) təhlükəsizlik qaydalarını (minmək, düşmək, pəncərədən boylanmaq, qolunu çıxartmamaq, sallanmamaq) izah edir. | |
| **T.N.:** 1. Yol hərəkəti qaydalarını izah edir.<br>2. Nəqliyyat vasitələrində davranış qaydalarının həyat üçün əhəmiyyətli olduğunu izah edir. | |
| **İnteqrasiya:** Azərb. d.: 4.1.7. | |
| **İş formaları:** kollektivlə və kiçik qruplarla iş | |
| **İş üsulları:** rollu oyun, suallar | |
| **Resuslar:** şəkillər, smayliklər, dərslik, iş vərəqələri | |

**I mərhələ**. Motivasiyanı "Məktəbə, getdiyimiz ünvanlara vaxtında və təhlükəsiz çatmaq üçün nəyi bilməliyik?" sualı ilə, yaxud dərslikdə verilmiş şəkillərlə qura bilərsiniz. Şagirdlərə "Şəkillərdə verilmiş uşaqlardan hansı yanlış davranır?" sualını verməklə onları düşünməyə, öz ehtimallarını söyləməyə vadar etmək olar. Birinci şəkildə uzaqdan məktəb görünür, məktəbə gedən yolda piyada keçidi var. Lakin şagird avtobusun qarşısından qaçaraq yolu keçir. İkinci şəkildə isə yeraltı piyada keçidi olduğu halda şagirdin biri digərini yolun üstündən keçmək üçün səsləyir. "Siz bu yoldan necə keçərsiniz?" sualı ilə şagirdlərdən müxtəlif cavablar ala və onları tədqiqat sualına yönləndirə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını aşağıdakı kimi formalaşdırmaq mümkündür: "Yol hərəkəti qaydalarını bilmək və onlara əməl etmək nə üçün vacibdir?"

**III mərhələ.** Tədqiqatı aparmaq üçün sinfi qruplara bölün. Qrup bölgüsü üçün müxtəlif üsullardan istifadə edə bilərsiniz.

Qrupların diqqətini mövzunun 2-ci səhifəsindəki suala yönəldin. Qrup üzvləri verilmiş şəkillərə əsasən yol nişanlarının mənasını izah edir, hansı nişanların piyada keçidi üçün olduğunu, velosipedi yolun kənarında sürməyin düzgün olub-olmadığını, hansı nişanların məlumatverici, hansıların isə qadağan nişanı olduğunu müəyyənləşdirməlidirlər. Siz qruplara müxtəlif nişanlar verərək onları "Məlumatverici" və "Qadağandır" başlıqları altında qruplaşdırmasını və ya mənalarını izah etməsini də tapşıra bilərsiniz.

**IV mərhələ.** Məlumatın mübadiləsini müzakirə şəklində təşkil edə bilərsiniz.

– İşiqfor olmayan yoldan necə keçmək lazımdır?
– Yeraltı piyada keçidi işarəsi olan yerdən yolu necə keçmək lazımdır? və s.

**V mərhələ.** Müzakirədən sonra yol hərəkəti qaydalarını rollu oyunla möhkəmləndirə bilərsiniz (şagirdlərə yol polisi, sürücü, piyada, sərnişin rolları verilməklə).

**VI mərhələ.** "Maraqlıdır" rubrikasında "Yol nişanları içərisində elə nişanlar da var ki, yaxınlıqdakı yeməkxananı, polis məntəqəsini, xəstəxananı göstərir" yazılıb və , , 

nişanları təqdim edilib. Siz bu məlumatdan motivasiyanın qurulması, yaxud ev tapşırığının verilməsi üçün də yararlana bilərsiniz.

LAYİHƏ

**VII mərhələ.** Şagirdlər belə nəticəyə gəlirlər ki, yol hərəkəti qaydalarını bilmək və ona əməl etməklə həyatlarını qoruyacaqlar.

**VIII mərhələ.** Siz hər səviyyənin sütununda müəyyən bal, yaxud ulduz işarəsi qoyaraq qiymətləndirməni həyata keçirə bilərsiniz.

| № | Meyarlar / Şagirdin adı | Yol hərəkəti qaydalarını çətinliklə izah edir. | Yol hərəkəti qaydalarını çətinliklə izah edir. | Yol hərəkəti qaydalarını bilməyin faydasını çətinliklə izah edir. | Yol hərəkəti qaydalarını bilməyin faydasını izah edir. |
|---|---|---|---|---|---|
| 1. | Nigar | * | | | |
| 2. | Əli | | * | | |
| 3. | Leyla | | | | * |

LAYİHƏ

## 6. MƏKTƏB QAYDALARI

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarının mahiyyətini sadə formada izah edir. | | |
| **T.N.:** Məktəbdaxili davranış qaydalarının vacibliyinə münasibət bildirir. | | |
| **İnteqrasiya:** İnf.: 2.2.2., Riy.: 5.1.1. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə, təsviretmə | plakat, şəkillər, smayliklər, karandaşlar |

**I mərhələ.** Motivasiya qurmaq üçün dərslikdə verilmiş şəkillərdən istifadə edə bilərsiniz. Şəkillərdə dərsin başlandığı təsvir edilib. Zəng səsləndikdə birinci şəkildə təsvir edilən şagirdlər səliqə ilə sinfə daxil olurlar. İkinci şəkildəki şagirdlər isə kimisi qaçaraq içəri daxil olur, kimisi də müəllimin xəbərdaredici duruşuna baxmayaraq, halını pozmadan söhbət edir. “Şəkillərdə yanlış olan nədir?” sualını verməklə cavablar almağa çalışın və müzakirəni tədqiqat sualına yönləndirin.

**II mərhələ.** Şagirdlər məktəbdə də müəyyən qaydalara əməl etməli olduqlarını bildirdikdən sonra “Məktəbin nizam-intizam qaydaları hansılardır və nə üçün onlara əməl etmək vacibdir?” tədqiqat sualını verin.

**III mərhələ.** Bütün sinif Komp və Muzi ilə birlikdə “Məktəbdə düzgün davranış qaydaları” adlı cədvəl tərtib edə bilər. Siz cədvəlin maketini əvvəlcədən hazır etsəniz, daha yaxşı olar. Tapşırıqda variantlar şagirdlər tərəfindən əlavə edilir. Variantların daha rəngarəng olmasına çalışın.

| | **Məktəbdə nizam-intizam qaydaları** |
|---|---|
| 1. | Dərsin gedişini pozmamalıyıq. |
| 2. | |
| 3. | |
| 4. | |
| 5. | |
| 6. | |

**IV mərhələ.** Daha sonra sinif qruplara bölünür. Onlara iş vərəqlərində müəyyən tapşırıqlar verilir.

Məsələn, şagirdlərə situativ tapşırıqlar verə, məktəbdə davranış qaydalarının pozulmasına aid səhnəcik hazırlanması tapşırıla bilər. Yaxud davranış qaydalarının pozulmasına aid rəsm çəkilməsi kimi bir variantınız da var. Və ya “Davranış qaydasını pozmuş sinif yoladaşını nəzakətli olmağa necə dəvət edərsiniz?” sualını verərək şagirdlərin müxtəlif variantlar təklif etməsinə şərait yarada bilərsiniz.

**V mərhələ**. Daha sonra qrup üzvləri işlərini təqdim edirlər və digər qrupların işlərinə də münasibət bildirirlər.

**VI mərhələ.** Bu dərsdə də təqdim edilmiş “Maraqlıdır” rubrikası şagirdlərin diqqətini çəkəcək. Siz Hacı Zeynalabdin Tağıyevin yaratdığı qızlar məktəbi haqqında olan informasiyadan şagirdlərin müstəqil işləyərək məlumat toplaması üçün də istifadə edə bilərsiniz.

LAYİHƏ

**VII mərhələ.** Ümumiləşdirmə aparаrkən sinifdə verilən tapşırıqlara müraciətiniz daha yaxşı nəticə verəcəkdir. Sonda nəticə çıxararaq qeyd edin ki, şagirdlər üçün qaydaların böyük əhəmiyyəti var. Qaydalara əməl edilməsi məktəbdə sakitliyin qorunması və nizam-intizamın pozulmaması deməkdir.

**VIII mərhələ.** Qiymətləndirməni aşağıdakı qaydada apara bilərsiniz:

| № | Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|---|
| 1. | Tapşırığı vaxtında yerinə yetirir. | | | | |
| 2. | Tapşırığı düzgün yerinə yetirir. | | | | |
| 3. | Mülahizələrlə çıxış edə bilir. | | | | |
| 4. | Əməkdaşlıq edir. | | | | |
| 5. | Təqdim etməyi bacarır. | | | | |

LAYİHƏ

# DAVRANIŞ MƏDƏNİYYƏTİ

7. NƏZAKƏT QAYDALARI
8. YAXŞI XÜSUSİYYƏTLƏR
9. YANLIŞ DAVRANIŞLAR
10. DİNLƏR
LAYİHƏ. ZƏFƏR CƏLƏNGİ





LAYİHƏ

## 7. NƏZAKƏT QAYDALARI

| | | |
|---|---|---|
| **Alt standartlar:** 3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (yoldaşını təqdim etmək, hal-əhval tutmaq, təbrik etmək, kömək təklif etmək) əməl edir.<br>3.1.2. Etiketdənkənar davranışlara tənqidi münasibət bildirir. | | |
| **T.N.:** İnsanlararası ünsiyyət etiketlərinə dair bilik və bacarıqlarını nümayiş etdirir. | | |
| **İnteqrasiya:** Azərb. d.: 1.2.2., Xarici d.: 2.2.4., İnf.: 2.1.3., 2.2.2., Riy.: 5.2.2. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə, rollu oyun | dərslik, iş vərəqləri, şəkillər |

**I mərhələ.** Motivasiyanı qurmaq üçün dərslikdə verilmiş situativ şəkillərdən istifadə edə bilərsiniz. Şagirdlərin diqqətinə çatdırılır ki, insan ünsiyyətsiz yaşaya bilməz. Ünsiyyət zamanı nələrə diqqət yetirməyin vacib olduğunu araşdırmaq məqsədilə təsvir edilənlər haqqında fikir mübadiləsi aparın. Birinci şəkildə tanışlıq mərasimi, ikinci şəkildə doğum günü olan qızı təbrik edənlər, üçüncü şəkildə isə yükü ağır olan bir qadına "İcazə verin, kömək edim", – deyərək yardım göstərən oğlan təsvir edilib. Dialoqların şagirdlər tərəfindən qurulmasını və davam etdirilməsini təmin etdikdən sonra şagirdlərə "Nəzakət qaydalarına əməl edən insanları necə adlandırırlar?", "Etiket qaydalarına əməl etməyən insanları kobud adlandırmaq olarmı?", "Bu cür adamlarla dostluq etmək istərdinizmi? Nə üçün?" kimi suallar vermək olar. Qaydalar haqqında danışdıqda onların dilindən "nəzakət qaydaları" anlayışını əldə etməyə çalışın.

**II mərhələ.** Daha sonra müzakirəni tədqiqat sualına doğru istiqamətləndirin: "İnsanlarla ünsiyyət qurduqda hansı nəzakət qaydalarına əməl etmək vacibdir?"

**III mərhələ.** Fikir mübadiləsini 27-ci səhifədə verilən şəkillər üzərində müzakirə aparmaqla da etmək olar. Təsvir edilən şəkillərlə bağlı dialoqların nəzakət qaydalarına əməl edilərək qurulmasına nail olun. Hansı şəkildə nəzakət qaydalarının pozulduğunu müəyyənləşdirin. Vəziyyətin düzəldilməsi üçün nə etmək lazım gəldiyini aydınlaşdırmağa çalışın.

**IV mərhələ.** Şagirdlərin müstəqil işləməsinə şərait yaradın. Bunun üçün dərslikdə verilmiş suallardan istifadə edə bilərsiniz: "Öskürdükdə və asqırdıqda necə davransanız, daha nəzakətli olarsınız?", "Səsini qaldırmaq nə üçün nəzakətsizlik hesab edilir?" və s.

**V mərhələ**. "Birlikdə edək" rubrikasında kollektivlə işləmək üçün tapşırıq verilib. Qeyd edilən fikirlər (siz əlavələr də edə bilərsiniz) lövhədə yazılır. Nəzakət qaydalarına uyğun olan sözlərin qarşısında "gülən üz", nəzakət qaydalarına uyğun olmayan sözlərin qarşısında isə "kədərli üz" şəkli yapışdırılmalıdır. Bunu kollektiv şəkildə yerinə yetirmək daha yaxşıdır. Siz cədvəli əvvəlcədən də hazırlaya bilərsiniz.

**VI mərhələ.** Ev tapşırığı olaraq şagirdlərə "Süfrə arxasında hansı davranış qaydalarına əməl etmək lazımdır" mövzusunda esse yazmağı tapşırmaq mümkündür.

Esse üçün plan:
1. Süfrə ətrafında oturma ardıcıllığı.
2. Süfrənin qurulması.
3. Süfrə mədəniyyəti.
4. Süfrə mədəniyyətini pozan hərəkətlər və s.

LAYİHƏ

**VII mərhələ**. Qiymətləndirməni aşağıdakı kimi apara bilərsiniz:

| N | Meyarlar | I səviyyə Çətinliklə | II səviyyə Müəllimin və ya yoldaşlarının köməyi ilə | III səviyyə Müdaxilə edilmədən, müstəqil |
|---|---|---|---|---|
| 1. | İnsanlararası ünsiyyət etiketlərinə dair bilik nümayiş etdirir. | | | |
| 2. | İnsanlararası ünsiyyət etiketlərinə dair bacarıqlarını nümayiş etdirir. | | | |
| 3. | Nəzakət qaydaları haqqında danışakən əvvəlki biliklərinə əsaslanır. | | | |
| 4. | Tapşırığı həll edərkən fərqli yollar təklif edir. | | | |

LAYİHƏ

# 8. YAXŞI XÜSUSİYYƏTLƏR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri şərh edir.<br>3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir.<br>3.4.1. Mənəvi borc haqqında biliklərini şərh edir. | | |
| **T.N.:** Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətlərə münasibət birdirir. | | |
| **İnteqrasiya:** İnf.: 1.2.3., 2.2.1., Azərb. d.: 1.1.2. | | |
| kollektiv və cütlərlə iş | müzakirə | dərslik, iş vərəqləri |

**I mərhələ.** Mövzu ilə bağlı motivasiya qurmaq üçün dərslikdəki şəkillər üzərində iş aparıla bilər. “Şəkillərdə insanın hansı mənəvi xüsusiyyətləri təsvir olunub?”, “Bu xüsusiyyətləri bir sözlə necə adlandırmaq olar?”, “Quşlara yuva düzəltmək mərhəmət sayıla bilərmi?”, “İslanmış pişiyi paltosunun arasına salan uşaq haqqında nə deyə bilərsiniz?”, “Heyvanlara qayğı göstərmək lazımdırmı?”, “İnsana müsbət xüsusiyyətlər lazımdırmı?” kimi istiqamətləndirici suallardan da motivasiya yaratmaq üçün istifadə edə bilərik. Siz bu dərsdə də mənəvi xüsusiyyətlər haqqında xüsusi izahat verməlisiniz. Vətənsevərliyin ən ali mənəvi keyfiyyətlərdən biri olduğunu diqqətə çatdıra bilərsiniz. Bu zaman Vətən üçün canlarından keçən şəhidlərin, qazilərin adlarını çəkərək, göstərdikləri şücaətlər haqqında danışaraq anlayış haqqında şagirdlərin təsəvvürünü bir qədər də möhkəmləndirməyə nail olacaqsınız. Tədqiqat sualını belə formalaşdırmaq olar: “Müsbət şəxsiyyəti formalaşdıran əsas mənəvi xüsusiyyətlər hansılardır?”

**II mərhələ.** Sinif qruplara bölünür və adları müəyyənləşdirilir. Verilmiş tapşırıqları yerinə yetirmək üçün müəyyən vaxt verilir. “Bəzən bilməyərəkdən müəyyən səhvlər edirik. Bu zaman səhvlərimizi etiraf etməliyikmi?”, “Siz nə zamansa səhvinizi etiraf etmisinizmi?”, “Hansı xüsusiyyətlər insanın müsbət xüsusiyyətləri hesab edilir?” kimi araşdırma sualları müəyyən etmək olar.

**III mərhələ.** Siz qruplarla işi 30-cu səhifədə verilmiş şəkillər üzərində də qura bilərsiniz. Tapşırıqda şəkillər əsasında mətnlərin qurulması tələb edilir. Qruplar qurduqları süjetli mətnləri təqdim etdikdən sonra təsvir edilən hadisələrin iştirakçılarında olan müsbət və mənfi xüsusiyyətlərin adlandırılmasını istəyin.

**IV mərhələ.** “Birlikdə edək” rubrikasındakı tapşırıq fərdi iş üçün nəzərdə tutulub. Şagirdlər bənzəmək istədikləri nağıl qəhrəmanlarının şəkillərini çəkə bilərlər. Şəkillər tamamlandıqdan sonra mütləq müzakirə təşkil edin və şagirdlərin hansı xüsusiyyətlərinə görə onlara bənzəmək istədiklərini müəyyənləşdirin. Uşaqlar çətinlik çəkərlərsə, onlara istiqamət verməyə çalışın.

**V mərhələ.** “Maraqlıdır” rubrikasında ən yaxşı mənəvi xüsusiyyətlərdən biri – səxavətli olmaq haqqında danışa bilərsiniz. “Hansı insanlara səxavətli insanlar deyilir?”, “Səxavətli olmaq müsbət mənəvi xüsusiyyətdirmi?” kimi suallar verdikdən sonra dünyada öz səxavətliliyi ilə seçilən, sevilən mesenatlar haqqında, daha sonra Nabat xanım Aşurbəyli barədə danışa bilərsiniz. Onun səxavətli insan adlandırılmasının səbəblərini qeyd edərək gördüyü işlər haqqında məlumat verin. Şagirdlərə bu elektron resursla tanış olmağı da təklif etmək olar:

https://www.youtube.com/watch?v=Mewn0dLGb94

LAYİHƏ

**VI mərhələ**. Dərsin sonunda şagirdlərin yaxşı xüsusiyyətlərini əks etdirən hadisələrə yer ayıra bilərsiniz. Hər bir şagird özünün yaxşı xüsusiyyətlərini sadalaya, onu nümayiş etdirən hansısa bir hadisə haqqında danışa bilər.

**VII mərhələ**. Qiymətləndirmə üçün əvvəlcədən meyar cədvəli hazırlaya bilərsiniz. Aşağıdakı fəaliyyətlər əsasında meyarları tərtib etmək olar:

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri şərh edir. | | | | |
| 2. | Mənəvi borc haqqında biliklərini şərh edir. | | | | |
| 3. | Mənəviyyata zidd xüsusiyyətlərə münasibət birdirir. | | | | |

LAYİHƏ

# 9. YANLIŞ DAVRANIŞLAR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir. | | |
| **T. N.:** Şəxsiyyəti formalaşdıran mənfi xüsusiyyətlərə münasibət bildirir. | | |
| **İnteqrasiya:** Azərb. d.: 1.1.2. | | |
| qruplarla və kollektiv iş | müzakirə, təsviretmə | dərslik, şəkillər |

**I mərhələ.** Müəlliflər motivasiyanı qurmaq üçün sizin diqqətinizə bir neçə şəkil təqdim ediblər. Bu illüstasiyalarda bir neçə yanlış xüsusiyyət təsvir edilib. Siz şagirdlərdən həmin xüsusiyyətləri adlandırmağı xahiş edin. Bunun üçün, əlbəttə ki, onlar təsvir edilən vəziyyət haqqında danışmalı, öz ehtimallarını irəli sürməlidirlər. Şəkillərdən birində yıxılan yoldaşına kömək edib onu qaldırmağa çalışan və onları laqeydcəsinə izləyən oğlanlar təsvir edilib. "Kənardan baxan oğlan düzmü hərəkət edir?", "Bu insana bir sözlə necə ad vermək olar?", "Hansı oğlan düz rəftar edir?" sualları cavab almaq üçün sizə yardım edəcəkdir. İkinci şəkildə yediyi bananın qabığını yerə atan qız təsvir olunub. "Bunu düzgün davranış adlandırmaq olarmı?", "Bu davranışı bir sözlə necə adlandıra bilərsiniz?" kimi suallar verməklə şagirdləri istiqamətləndirə bilərsiniz. Digər şəkildə isə birinci yer tutaraq mükafatlandırılan idmançı və ona aşağıdan  yuxarı paxıllıq hissi ilə baxan oğlan əks olunub. Bu dəfə də "Şəkildə yanlış olan nədir?", "Oğlanın baxışlarından onun hansı xüsusiyyətini oxuyursunuz?" suallarını verə bilərsiniz. Şagirdləri "Hər bir yanlış davranışın düzəldilməsi mümkündür" qənaətinə doğru yönləndirmək üçün onlara "Əgər eyni hərəkəti siz etsəydiniz, onu düzəltmək üçün necə davranardınız?" sualını verə bilərsiniz. Tədqiqat sualı çıxarılır: "Yanlış davranışların insanlara zərəri nədir?"

**II mərhələ.** Şagirdlər yanlış hərəkətlərin ətrafdakılara və insanların özlərinə nə kimi ziyan vurduğunu müəyyən etməlidirlər. Onlar bu sualı kollektiv şəkildə cavablandırırlar.

**III mərhələ.** Yaddaş kartındakı fikir yanlış hərəkətlərin insanların özlərinə də ziyan vurduğunu xüsusi olaraq diqqətə çatdırmaq funksiyası daşıyır.

**IV mərhələ.** Səhifə 33-dəki tapşırıqları şagirdlərə qrup şəklində işlədə bilərsiniz. Şəkildə müxtəlif təsvirlər verilmişdir. Şagirdlərə tapşırın ki, gördükləri  haqqında kiçik hekayələr hazırlasınlar. Hər bir şəkildə hansı yanlış davranışın təsvir edildiyini müəyyənləşdirməyə çalışın. Çox güman ki, bir-birinə zidd olan cavablar da alacaqsınız. Çünki, məsələn, hürən itdən qorxub qaçmaqda kimsə yanlışlıq görməyə bilər. Siz diqqəti özündən kiçik və köməksiz birini çətin vəziyyətdə qoyub qaçmağın yanlış hərəkət olduğuna yönləndirməyə çalışın və s. Sonda hekayələrə ad da vermək olar.

**V mərhələ.** "Birlikdə edək" rubrikasına keçid edin. Şagirdlər bu tapşırığı kollektiv halda da həll edə bilərlər. Müzakirə apararaq onların diqqətini qarşılaşdıqları yanlış rəftarlara, yanlış hərəkətlərə yönləndirməyə cəhd göstərin. Çalışın ki, haqqında danışdıqları hər hansı bir hərəkətin, həqiqətən də, yanlış olduğunu əsaslandıra bilsinlər. Bunun üçün, lazım gəldikdə, yardımçı suallardan da istifadə etmək olar.

**VI mərhələ**. "Maraqlıdır" rubrukasında təqdim edilən informasiyanı şagirdlərin diqqətinə təqdim edərkən yalnız yalan danışmağın mənfi xüsusiyyət olduğunu söyləməklə kifayətlənməyin. Yalanı yadda saxlamağın özünün əziyyətli bir iş olduğuna da diqqət yönəldin.

LAYİHƏ

**VII mərhələ.** Dərslikdə verilən tapşırıqlar yalnız şagirdlərin məntiqi və tənqidi bacarıqlarının inkişaf etdirilməsinə deyil, eyni zamanda da onların bir şəxsiyyət kimi formalaşmasına təsir funksiyası daşıyır. Məsələn, "Yanınızda başqa birinə qarşı yanlış rəftar edildiyini görsəniz, nə edərsiniz?" sualı ətrafında kollektiv müzakirə təşkil etməklə şagirdlərdə haqsızlığa, yanlışlığa qarşı passiv mövqe tutmamaq lazım gəldiyi ilə bağlı fikir formalaşdırmağınız, onları cəmiyyətdə öz fikrini və mövqeyini bildirməkdə cəsarətli davranmağa təşviq etməyiniz mümkündür.

**VIII mərhələ.** Sonda nəticəyə gələrək insanların xoşagəlməz xüsusiyyətlərinin də olduğunu qeyd edin. Xatırladın ki, bu cür yanlış davranışlar hər kəsi insandan uzaqlaşdıra bilər. Onu da xüsusi olaraq qeyd edin ki, insan özünün ən yaxşı tərbiyəçisidir. Yəni iradə və əzmkarlıq göstərməklə hər kəs özündə yanlış bildiyi xüsusiyyətləri aradan qaldıra bilər.

**IX mərhələ.** Formativ qiymətləndirməni aşağıdakı fəaliyyətlərə görə tərtib edə bilərsiniz: fərqləndirir, rollu oyun nümayiş etdirir, müəyyənləşdirir.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir. | | | | |
| 2. | Müsbət xüsusiyyətlərlə yanlış xüsusiyyətləri fərqləndirir. | | | | |
| 3. | Mənəviyyata zidd xüsusiyyətlərə münasibət birdirir. | | | | |

LAYİHƏ

# 10. DİNLƏR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 3.3.1. Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir.<br>3.3.2. Dinlərin ümumi cəhətlərini izah edir. | | |
| **T.N.:** Müxtəlif dinlərin ümumi cəhətlərini müqayisə edir. | | |
| **İnteqrasiya:** İnf.: 1.2.2., Riy.: 5.1.1. | | |
| kollektivlə və böyük qruplarla iş | müzakirə | dərslik, iş vərəqləri, şəkillər |

**I mərhələ.** Motivasiya yaratmaq üçün dərslikdəki şəkillərdən istifadə etmək olar. Müəlliflər müxtəlif dini ibadətgahların təsvirlərini təqdim ediliblər. Şagirdlərdən bu məbədlər haqqında bildiklərini soruşun. Hər üç məbədin ibadət üçün nəzərdə tutulduğu, hər üç dinin də səmavi din oduğu fikrini almağa çalışın. Dinlərin adlarının səsləndirilməsinə çalışın. Sonra şagirdlərin diqqətini hər bir məbədin qarşısında duran və o dini təmsil edən din nümayəndələrinə, hər bir dinin özünəməxsus atributlarına yönəldin.

**II mərhələ**. Tədqiqat sualını belə müəyyənləşdirin: "Səmavi dinlərin ümumi cəhətləri hansılardır?"

**III mərhələ.** Şagirdlər sizin köməyinizlə şəkillərdə yəhudi, islam və xristian dinlərinin atributları olduğunu müəyyənləşdirsinlər. İslam, xristian və yəhudi dinlərinə ibadət edən insanların necə adlandırıldığını da şagirdlərdən soruşaraq cavab almağa çalışın. Bu sual şagirdlərə çətin görünərsə, kömək edə bilərsiniz. Daha sonra diqqəti dini kitablara yönləndirin.

**IV mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaradın. Bunun üçün dərslikdə verilmiş suallardan istifadə edə bilərsiniz. "Şəkillərdəki atributların hansı dinlərə aid olduğunu müəyyənləşdirin", "Hansı dini bayramlar haqqında məlumatınız var?", "Dinin təbliğ etdiyi mənəvi dəyərlər insanlara hansı vasitələrlə çatdırılır?" sualları həm şagirdlərin birinci sinifdə öyrəndiyi məlumatları xatırlamağa, həm seçim etməyə imkan verəcək, həm də şagirdləri müzakirə apararaq bildiyi məlumatları təhlil etməyə yönləndirəcək. Bu sualları kollektivlə işləmək daha məqsədəuyğundur.

**V mərhələ.** Dərslikdə verilmiş "Yaddaş kartı" rubrikası müəyyən ana fikirlərin şagirdlərin yaddaşında daha yaxşı qalmasına xidmət edir. "Bütün səmavi dinlər yaxşılığı və mərhəmət hisslərini təbliğ edir" fikri şagirdlərin diqqətini dinlərin insanların mənəvi inkişafında roluna yönləndirəcəkdir. Siz bu rubrikada təqdim edilmiş fikri bir qədər də dərinləşdirə, ətrafında müəyyən müzakirə təşkil edə bilərsiniz.

**VI mərhələ.** Dini bayramlarımız haqqında şagirdlərə əlavə məlumat verə bilərsiniz. Ramazan və Qurban bayramından söhbət açmaq, şagirdlərin bu bayramlarla bağlı biliklərini yoxlamaq məqsədəuyğundur.

**VII mərhələ.** "Birlikdə edək" rubrikası kollektiv iş üçün nəzərdə tutulmuşdur. Bu rubrika vasitəsilə siz şagirdlərin dərs zamanı öyrəndikləri biliklərin səviyyəsini ümumiləşdirə, nəticə əsasında qiymətləndirmə apara bilərsiniz.

LAYİHƏ

**VIII mərhələ.** Dərsin sonunda nəticə çıxararaq bildiririk ki, dinlər müxtəlif olsa da, hamısı Allaha ibadət etməyin yollarını öyrədir.

**IX mərhələ.** Qiymətləndirməni aşağıdakı meyarlar əsasında apara bilərsiniz: müxtəlif dinlərin mövcudluğunu izah edir, dinləri bir-birindən fərqləndirir.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Dinlərin ümumi cəhətlərini izah edir. | | | | |
| 2. | Müxtəlif dinləri nümunələr əsasında izah edir. | | | | |
| 3. | Təsvirlərdə dini rəmzləri tanıyır. | | | | |
| 4. | Təsvirlərdə dini rəmzləri bir-birindən fərqləndirir. | | | | |

LAYİHƏ

# LAYİHƏ. ZƏFƏR ÇƏLƏNGİ

| | |
|---|---|
| **Alt standart: 3.2.1.** Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (mərhəmət, ailəyə, Vətənə məhəbbət, düşmənə nifrət, səhvini etiraf etmək) şərh edir. | |
| **Məqsəd:** Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir. | |

**I mərhələ.** Motivasiyanı "Azərbaycan əsgəri" mahnısını dinləməklə başlayırıq. Mövzu üçün bir saat nəzərdə tutulub. Əvvəlcədən şagirdlərə məlumat toplamağı tapşırmaq lazımdır. Bu layihəni işləməkdə məqsəd onlarda Vətənə məhəbbət, şəhid, qazi ailələrinə hörmət və mərhəmət, düşmənə nifrət hissini aşılamaqdan ibarətdir.

Şagirdlərə qazetdə maraqlı bildikləri məlumatları yerləşdirməkdə sərbəstlik verilməlidir. Lakin eyni zamanda onlara izah edilməlidir ki, qəzetdə təqdim edilən məlumatlar da, şəkillər də 44 günlük müharibənin gedişatını və əsas tarixi qələbələri özündə əks etdirməlidir.

**II mərhələ.** Şagirdlərə işğaldan azad olunmuş ərazilərin adlarını qırmızı qələmlə, şəhidlərin sayını qara qələmlə göstərməyi tövsiyə edə bilərsiniz.

**III mərhələ.** "İlham Əliyevin imzaladığı 02.12.2020-ci il tarixli sərəncama əsasən, hər il **sentyabrın 27-si ölkəmizdə Anım Günü**, noyabrın 8-i isə Zəfər Günü kimi qeyd ediləcək" məlumatının hər bir qrupun qəzetində olmasına diqqət yetirin.

**IV mərhələ.** İkinci Qarabağ müharibəsi zamanı azad edilən ərazilərimizin adının hər qrupun qəzetində verilməsini təmin edin:

| | |
|---|---|
| 4 oktyabr 2020-ci il | Cəbrayıl |
| 17 oktyabr 2020-ci il | Füzuli |
| 20 oktyabr 2020-ci il | Zəngilan |
| 25 oktyabr 2020-ci il | Qubadlı |
| 8 noyabr 2020-ci il | Şuşa |
| 20 noyabr 2020-ci il | Ağdam |
| 25 noyabr 2020-ci il | Kəlbəcər |
| 1 dekabr 2020-ci il | Laçın |

**V mərhələ.** Qruplar öz işlərini təqdim etsinlər. Qiymətləndirməni aşağıdakı meyarlar üzrə apara bilərsiniz.

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Layihədə bütün qrup üzvləri iştirak edir. | | |
| Axtarış düzgün aparılır. | | |
| Təqdimatçı layihədəki fikirləri aydın və dəqiq ifadə edir. | | |
| Mövzu ilə bağlı düzgün məlumat əks olunub. | | |
| Layihənin hazırlanmasında sistemlilik gözlənilir. | | |

LAYİHƏ

# YAŞADIĞIMIZ DÜNYA

11. CANLILAR ALƏMİ
LAYİHƏ. QIRMIZI KİTAB
12. CANSIZLAR
13. CANLILARA LAZIM OLANLAR
14. FƏSİLLƏR
15. SUYUN DÖVRANI
16. COĞRAFİ OBYEKTLƏR
17. ÜFÜQ
18. ƏTRAF MÜHİT
LAYİHƏ. XƏZİNƏ AXTARIŞI





LAYİHƏ

# 11. CANLILAR ALƏMİ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) təsvir edir.<br>1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **T.N.:** Canlılar aləminə aid olan varlıqları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **İnteqrasiya:** Riy.: 1.1.1., İnf.: 1.1.1., 2.2.1., Təs. in.: 2.2.1., Xarici d.: 1.1.3. | | |
| kollektivlə və kiçik qruplarla iş | müzakirə, təsviretmə | dərslik, iş vərəqi |

**I mərhələ.** Mövzu ilə bağlı motivasiya yaratmaq üçün dərslikdəki şəkillərə müraciət edə bilərsiniz. Müəlliflər vəhşi təbiətlə mədəni bitkilərin, ev heyvanlarının təsvirini yanaşı təqdim etməklə şagirdlərə müqayisə imkanı yaraymağa çalışıblar. Motivasiyanı qurmaq üçün suallardan istifadə edərək şagirdləri yönləndirə bilərsiniz:

"Şəkillərdə hansı canlılar təsvir olunub?", "Onların böyüdüyü, yaşadığı mühitlər arasında hansı fərq var?", "Şəkillərdəki kol və ağacları müqayisə edin. Sizcə, fərqli olan nədir?", "Şəkillərdəki canlılar yaşamaq üçün lazım olanları necə əldə edirlər?" və s.

Sualların köməyi ilə şagirdlər kolların gövdələrinin torpağa yaxın, ağac bitkilərinin isə daha yuxarıda budaqlanması haqqında məlumat əldə edəcək, yabanı və mədəni bitkilərin olduğunu biləcək, ev heyvanlarını çöl heyvanlarından ayırmağı öyrənəcəklər.

Tədqiqat sualını "Canlıları necə qruplaşdırmaq olar?" kimi müəyyənləşdirə bilərsiniz.

**II mərhələ.** Şagirdlərin öyrəndikləri biliyi tətbiq etməsi üçün sərbəst işləməsinə şərait yaradın. Məsələn, dərsliyin 39-cu səhifəsində verilən 1-ci və 2-ci tapşırıqları qrup işi şəklində verə bilərsiniz. Bu tapşırığa yabanı və mədəni bitkilərin seçilməsini də əlavə etmək olar.

**III mərhələ.** Dərsdə kollektiv işin təşkili məqsədilə "Birlikdə edək" rubrikasında təqdim edilən tapşırıqdan istifadə etmək mümkündür. Bunun üçün şagirdləri məktəbin həyatinə çıxara və ya sinif pəncərəsindən müşahidə etmək üçün uyğun şərait yaratmaqla da tapşırığı reallaşdıra bilərsiniz. Bu zaman şagirdlər əllərində olan müşahidə dəftərlərinə məktəb həyatində gördükləri bütün canlıların, əşyaların və s. adını yazacaq, onları fərqləndirən spesifik xüsusiyyətləri qarşısında qeyd edəcəklər. İşin daha səmərəli təşkili üçün müşahidə vərəqlərini siz əvvəlcədən də hazırlayaraq təqdim edə bilərsiniz. Bu, işinizi bir qədər asanlaşdırmış olacaq.

**IV mərhələ.** "Maraqlıdır" rubrikasında verilən məlumat insanların əhliləşdirdiyi at haqqındadır. Digər dərslərdə olduğu kimi, bu dərsdə də "Maraqlıdır" rubrikasında təqdim edilmiş məlumatdan bir çox məqsədlər üçün istifadə edilə bilər. Seçim sizindir. Siz ondan yararlanaraq motivasiya qura bilərsiniz. Ev tapşırığı üçün istifadə etməyiniz də mümkündür: şagirdlərə insanların əhliləşdirdiyi ev heyvanları haqqında araşdırma aparmağı, məlumat toplamağı tapşırmaq olar.

**V mərhələ.** Nəticə olaraq, şagirdlər bitkilərin yabanı və mədəni, heyvanların vəhşi və ev heyvanları olmaqla iki qrupa bölündüyünü öyrənirlər. Daha sonra siz onlara "Qırmızı kitab"a düşmüş canlılar haqqında məlumat toplamağı da tapşıra bilərsiniz.

LAYİHƏ

**VI mərhələ**. Qiymətləndirmə aparın.

| Meyarlar / Qruplar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Canlı varlıqları təsvir edir. | | | | |
| Canlı varlıqların fərqlərini izah edir. | | | | |
| Mədəni və yabanı bitkiləri təsvir edir. | | | | |
| Ev və çöl heyvanlarını fərqləndirir. | | | | |

LAYİHƏ

# LAYİHƏ. QIRMIZI KİTAB

| | |
|---|---|
| **Alt standartlar:** | 1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir.<br>1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. |
| **İş forması:** böyük qruplarla iş | |
| **Resuslar:** dəftər, şəkillər, yapışqan, qayçı, rəngli qələmlər | |

**I mərhələ.** Motivasiyanı "Ağacdələn" mahnısı ilə qura bilərsiniz.

**II mərhələ.** Əvvəlcə şagirdlərə **"**Qırmızı kitab" haqqında məlumat verin. Bu kitabın hazırlanmasının vacibliyindən danışın. Layihənin işlənməsi üçün bir dərs saatı ayrıldığından şagirdlərə tapşırıqları əvvəlcədən verə bilərsiniz. Qruplara bölündükdən sonra onlar topladıqları materialları sistemləşdirməlidirlər. Dərs tədqiqedici xarakter daşıyır. "Nəsli kəsilməkdə olan bitkilər", "Nəsli kəsilməkdə olan heyvanlar", "Nəsli kəsilməkdə olan quşlar" haqqında əldə edilən məlumatlar "Qırmızı kitab"da toplanmalıdır. Siz şagirdlərdə çaşqınlıq yaranmasın deyə quşların da heyvan olduğunu mütləq onların diqqətinə çatdırın.

**III mərhələ.** Şagirdlər seçilmiş şəkilləri qayçı ilə kəsərək dəftərə səliqə ilə yapışdırsınlar. Burada onların özlərinin çəkdiyi rəsmlərin də yer alması məqsədəmüvafiqdir.

**IV mərhələ.** Şagirdlər işlərini tamamladıqdan sonra onlara hazırladıqları kitabları təqdim etmək üçün şərait yaradın. Təqdimat zamanı nə üçün kitaba saldıqları canlıları seçdiklərini açıqlamalıdırlar ki, bu da təqdimatı daha maraqlı edəcək.

Hazırlanmış "Qırmızı kitab"ın sinfin müvafiq guşəsində asılması məqsədəuyğundur.

**V mərhələ**. Qiymətləndirməni "sadalayır", "fərqləndirir", "izah edir", "fəaldır", "mühakimə yürüdür" kimi fəaliyyətlər əsasında apara bilərsiniz.

LAYİHƏ

# 12. CANSIZLAR

<table>
<tr><td colspan="3">Alt standartlar: 1.1.1. Varlıq və hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır.<br>1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir.</td></tr>
<tr><td colspan="3">T.N.: Varlıq və hadisləri xarakterik əlamətlərinə görə qruplaşdırır və müvafiq avadanlıqlardan istifadə edir.</td></tr>
<tr><td colspan="3">İnteqrasiya: Azərb. d.: 2.1.1., Təs. in.: 3.1.1., Texn.: 1.2.2.</td></tr>
<tr><td>kollektiv və kiçik qruplarla iş</td><td>müzakirə, izahetmə</td><td>dərslik, dibçək, toxum, daş, su</td></tr>
</table>

**I mərhələ.** Motivasiya yaratmaq məqsədilə dərslikdəki şəkillərə müraciət edə bilərsiniz. Şagirdlərdən şəkillərdə gördükləri haqqında danışmağı istəyin. Şəkillərdə təsvir edilənlər adlandırıldıqdan və sadalandıqdan sonra şagirdlərdən onların cansız olduğu cavabını almağa çalışın və "Bu varlıqların əsas xüsusiyyətləri hansılardır?" tədqiqat sualını müəyyənləşdirin.

**II mərhələ.** Sinifi təşkil edin və qruplara bölün. Cansız varlıqlarla canlı varlıqların və cansız varlıqlarla əşyaların bir-birindən hansı xüsusiyyətlərinə görə fərqləndiyini müəyyənləşdirməyə çalışın. Şagirdlərin diqqətini cansız təbii varlıqlarla insan əli ilə yaradılmış əşyalar arasındakı fərqə yönləndirin. Əşyaların insan əli ilə yaradıldığını xüsusi olaraq vurğulayın.

**III mərhələ.** Şagirdlərin müstəqil işləməsinə şərait yaradın. Bunun üçün dərsliyin 43-cü səhifəsindəki suallardan istifadə edə bilərsiniz.

**IV mərhələ.** 43-cü səhifədəki ilk tapşırıq kollektiv olaraq yerinə yetirilsə, məqsədəuyğun olar. Şəkildə verilənlər arasından cansız təbii varlıqların seçilməsini şagirdlərə tapşırın. Siz şəkillərin sayını artıra da bilərsiniz. Müzakirə zamanı belə nəticəyə gəlin ki, təbiətdə mövcud cansız varlıqlarla cansız əşyalar arasında fərq var. Belə ki əşyalar insanlar tərəfindən yaradılır. Sizə xüsusi olaraq xatırladırıq ki, dərslikdə təqdim edilən QR kod vasitəsilə siz tədris etdiyiniz dərslə əlaqədar əlavə məlumata da malik olacaqsınız. Məsələn, "Cansızlar" dərsi ilə əlaqədar təqdim edilmiş QR kod vasitəsilə siz maraqlı bir animasiya filmi ilə tanış olacaqsınız ki, bu filmdə də cansız və canlı varlıqlar arasındakı fərq çox maraqlı bir şəkildə izah edilir.

**V mərhələ**. "Birlikdə edək" rubrikasında sizə təcrübə aparmaq üçün maraqlı bir tapşırıq təqdim edilibdir. Belə ki siz şagirdlərlə birlikdə iki dibçək hazırlayaraq birində buğda, digərində isə daş əkə bilərsiniz. Bir, yaxud iki həftə sonra şagirdlərin iştirakı ilə toxumun cücərdiyini, daşın isə olduğu kimi qaldığını müşahidə edəcəksiniz. Siz bu tapşırığı "Canlılar", "Cansızlar", "Canlılara lazım olanlar" dərslərində də reallaşdıra bilərsiniz. Bu təcrübə şagirdlərin bir çox sualların cavabını tədqiqat apararaq öyrənməsinə kömək edəcək.

**VI mərhələ**. "Maraqlıdır" rubrikasında təqdim edilmiş məlumat canlı varlıqların var ola bilmək üçün cansızlara ehtiyacı olduğu haqqındadır. Siz bu məlumat vasitəsilə təbiətdəki bütün varlıqların bir-birinə olan ehtiyacından danışa bilərsiniz.

LAYİHƏ

**VII mərhələ**. Sonda nəticə çıxararaq bildirin ki, cansız varlıqlar nəfəs almır, böyümür, çoxalmır. Canlı varlıqlar cansız təbii varlıqlar olmadan yaşaya bilmirlər.

**IX mərhələ.** Qiymətləndirməni aşağıdakı meyarlarla apara bilərsiniz.

| **Meyarlar** / **Qruplar** | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Cansız varlıqları tanıyır. | | | | |
| Cansız varlıqlara aid nümunələr göstərir. | | | | |
| Cansız və canlı varlıqları oxşar və fərqli xüsusiyyətlərinə görə qruplaşdırır. | | | | |
| Varlıq və hadisələr haqqında danışarkən müvafiq avadanlıqlardan istifadə edir. | | | | |

LAYİHƏ

## 13. CANLILARA LAZIM OLANLAR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır. | | |
| **T.N.:** Varlıq və hadisələri xarakterik xüsusiyyətlərinə görə qruplaşdırır. Canlılar aləminə aid olan varlıqları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **İnteqrasiya:** Azərb. d.: 2.1.1., Təs. in.: 3.1.1. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə, təsviretmə | dərslik, plakatlar |

**I mərhələ.** Motivasiya yaratmaq məqsədilə dərslikdəki şəklə müraciət edə bilərsiniz. Müəlliflər bir şəkildə suda və quruda yaşayan canlıları təqdim etməyə çalışıblar. Bunun üçün şərti olaraq su mühiti və quru mühiti götürülmüşdür. Şagirdlərdən suda və quruda yaşayan canlıları sadalamasını istəyin. Onları öz mühitlərindən ayırdıqda nə baş verə biləcəyini soruşun. Hər bir canlının yaşadığı mühitə uyğunlaşdığı və onun əlamətlərini qazandığı fikrini almağa çalışın. Daha sonra tədqiqat sualı olaraq "Yaşamaq üçün canlılara nə lazımdır?" sualını müəyyənləşdirin.

**II mərhələ.** Şagirdlərdən su və hava, canlıların qidalanmaq üçün ehtiyac duyduqları mühit haqqında soruşa bilərsiniz.

**III mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaradın. Bunun üçün onlara dərsliyin 45-ci səhifəsindəki tapşırıqları verə bilərsiniz. Məsələn, tutuquşu ilə ağ ayının, səhra kaktusu ilə dibçək gülünün yaşadıqları mühitləri müqayisə etdikdən sonra onların yerinin dəyişdirilməsini təklif edin və bu zaman nə baş verə biləcəyini soruşun.

**IV mərhələ.** "Birlikdə edək" rubrikasında təqdim edilmiş tapşırığı kollektivlə reallaşdıra bilərsiniz. Şagirdlər plakatlara uyğun olaraq heyvanları qruplaşdırmalıdırlar. Bu tapşırığı bütün sinif yerinə yetirməlidir. Plakatlarda adları yazılmış canlıları 2 adda qruplaşdırmağı tapşırın: 1) Suda yaşayanlar 2) Quruda yaşayanlar. Bu qruplaşdırmadan sonra hər mühitin fərqli cəhətləri üzərində müzakirə aparmaqla şagirdlərin əldə etdikləri bilikləri bir qədər də möhkəmləndirə bilərsiniz.

**V mərhələ.** "Maraqlıdır" rubrikasında "təbii bağban" olan dələ, onun sonradan yemək üçün gizlətdiyi toxumlar və onlardan cücərən ağaclar haqqında məlumat təqdim edilib. Bu maraqlı məlumatdan keçid alaraq siz şagirdlərdən başqa hansı bu cür təbiətə "bağbanlıq edən" heyvanlar haqqında eşitdiklərini soruşa və ya onlar haqqında araşdırma aparıb məlumat əldə etmək üçün ev tapşırığı da verə bilərsiniz.

**VI mərhələ.** Dərsin sonunda şagirdlərlə birlikdə belə bir nəticəyə gəlirsiniz: canlılar təbiətin bir hissəsidir, onlar yaşadıqları mühitə uyğunlaşır və onun əlamətlərini qazanırlar.

**VII mərhələ.** Qiymətləndirməni aşağıdakı şəkildə apara bilərsiniz.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Varlıqları xarakterik əlamətlərinə görə qruplaşdırır. | | | | |
| 2. | Varlıqları xarakterik əlamətlərinə görə bir-birindən fərqləndirir. | | | | |

LAYİHƏ

# 14. FƏSİLLƏR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır.<br>1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müəyyən avadanlıqlardan sərbəst istifadə edir. | | |
| **T.N.:** Fəsilləri əlamətinə görə fərqləndirir və hər fəsildə baş verən dəyişiklikləri izah edir. | | |
| **İnteqrasiya:** Azərb. d.: 2.1.1., 1.2.1., Texn.: 1.2.2., Təs. in.: 3.1.1. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə, təsviretmə | iş vərəqləri, dərslik, qablar, termometrlər, soyuq su, isti su |

**I mərhələ.** Motivasiyanı dərslikdə verilmiş şəkillərin müqayisəsi üzərində qura bilərsiniz. “Şəkillərdə nə təsvir edilib?”, “Şəkillərdə fərqli olanları tapın”, “Fəsillər dəyişdikcə temperatur, yağıntının miqdarı necə dəyişir?”, “Fəsillər dəyişdikcə, sizcə, canlıların, bitkilərin həyatında hansı dəyişikliklər baş verir” kimi suallar verməklə şagirdləri yönləndirə bilərsiniz. Daha sonra onların diqqətini şəkillərdəki termometrə yönləndirin. Fəsillərlə temperatur dəyişimi arasında əlaqənin mövcudluğuna işarə edərək “Fəsillərdə havanın temperaturu necə dəyişir?” tədqiqat sualını müəyyənləşdirin.

**II mərhələ.** Şagirdlərin diqqətinə “Yaddaş kartı”nda verilmiş informasiyanı çatdıraraq “Yerin Günəş ətrafında fırlanması nəticəsində fəsillər yaranır” kimi ilkin biliyi verin.

**III mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaradın. Bu məqsədə çatmaq üçün dərsliyin 47-ci səhifəsindəki ilk iki tapşırıq yardımçınız ola bilər. “Hansı fəsillərdə yağışlar dövrü başlayır?”, “Yağıntının yağış və qar halında yağması temperaturdan asılı ola bilərmi?”, “Köçəri quşlar ilin hansı fəsillərində köç edirlər? Köçün səbəbi nədir?” kimi suallar ətrafında qrupların işləməsinə vaxt ayıra bilərsiniz.

**IV mərhələ.** Mübadilə zamanı qrup üzvlərinin təqdimatı dinlənilir və qeydlər aparılır.

**V mərhələ.** Qrupların təqdimatları dinlənildikdən sonra qış yuxusuna gedən heyvanlar haqqında danışa bilərsiniz. Lakin əsas məlumatı şagirdlərdən almağa çalışın. Onlardan hansısa mütləq ayının qış yuxusuna getdiyini söyləyəcəkdir. Bu məlumata əlavə olaraq digər passiv yaşam mərhələsinə keçən heyvanlar haqqında danışa bilərsiniz. Həmçinin müqayisə edərək qışda daha aktiv həyat yaşayan canlılar haqqında verdiyiniz məlumatlar da şagirdlərin marağına səbəb olacaqdır.

**VI mərhələ.** “Birlikdə edək” rubrikasında verilmiş tapşırıqdan kollektiv iş üçün istifadə edə bilərsiniz. İki stəkan götürərək birinə isti su, digərinə isə soyuq su doldurun. Termometr vasitəsilə suyun dərəcəsini ölçün və qeyd edin. Çalışın, bu zaman əlinizdə havanın və insanın temperaturunu ölçən termometrlər də olsun.

**VII mərhələ.** Ümumiləşdirməyə keçməmişdən əvvəl “Maraqlıdır” rubrikasına müraciət edin. Fəsillərin heç də Yer kürəsinin hər yerində eyni cür keçmədiyini şagirdlərin diqqətinə çatdırın. Bütün il uzunu yaydakı kimi isti olan yerlər olduğu kimi, bütün ili soyuq keçən ərazilərin də ol-

LAYİHƏ

duğunu bildirə bilərsiniz. Siz bu məlumatdan dərsin motivasiya mərhələsində və ya ev tapşırığı vermək üçün də istifadə edə bilərsiniz.

**VIII mərhələ.** Ümumiləşdirmə aparın. Hər biri 3 aydan ibarət 4 fəsil mövcud olduğunu qeyd edin. Yerin Günəş ətrafında fırlanması nəticəsində fəsillərin yarandığını ilkin məlumat kimi bir daha diqqətə çatdırın.

**IX mərhələ.** Qiymətləndirməni aşağıdakı cədvəl üzrə apara bilərsiniz.

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Fəsilləri əlamətinə görə fərqləndirir. | | | | |
| Hər fəsildə baş verən dəyişiklikləri izah edir. | | | | |
| Fəsillərin yaranma səbəbini izah edir. | | | | |

LAYİHƏ

# 15. SUYUN DÖVRANI

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.1.3. Suyun təbiətdə dövranını sadə şəkildə təsvir edir. | | |
| **T.N.:** 1. Suyun təbiətdəki hallarını tanıdığını nümayiş etdirir.<br>2. Suyun təbiətdə necə dövran etdiyini sadə şəkildə izah edir. | | |
| **İnteqrasiya:** İnfor.: 2.1.2., Təs. inc.: 1.1.3. | | |
| kollektivlə, cütlərlə və kiçik qruplarla iş | müzakirə | dərslik, iş vərəqləri, lupa, buz, qaynayan su |

**I mərhələ.** Motivasiyanı dərslikdəki şəkil üzərində qura bilərsiniz. "Buz parçalarını stəkana yığıb saxlasaq, yaxud çaydana töküb qazda isitsək, nə görəcəyik?", "Təbiətdə buna oxşar hansı hadisələri müşahidə etmisiniz?", "Şəkildə gördükləriniz haqqında danışın. Suyun hərəkətini necə adlandıra bilərik?", "Sizcə, su təbiətdə hansı şəkildə dövr edir?", "Suyun buxarlanmasına səbəb olan nədir?" kimi suallarla şagirdləri yönləndirə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını belə müəyyənləşdirə bilərsiniz: "Təbiətdə suyun dövranı nədir və o necə baş verir?"

**III mərhələ.** Dərsin gedişində şagirdlərin diqqətini yaddaş kartında verilmiş məlumata da yönləndirə bilərsiniz: "Təbiətdə su yağış, qar, dolu şəklində yerə enir, buxara çevrilib havaya qalxır".

**IV mərhələ.** Şagirdlərin sərbəst şəkildə işləməsinə şərait yaradın. Bunun üçün dərsliyin 49-cu səhifəsindəki suallardan istifadə edə bilərsiniz. "Şəkillərin birində buludlardan qar, digərində yağış yağır. Yağış və ya qarın yağması nədən asılıdır?", "İlin hansı fəslində yağış, hansı fəslində qar yağır? Bu, temperaturla bağlı ola bilərmi?" kimi suallar verə bilərsiniz.

**V mərhələ.** "Birlikdə edək" rubrikasında qrup olaraq lupa vasitəsilə buza baxmaq təklif edilir. Daha sonra suyun qaynama, buxarlanma prosesi təcrübə şəklində şagirdlərə təqdim edilir.

**VI mərhələ.** Daha sonra "Maraqlıdır" rubrikasına müraciət edə bilərsiniz. "Qar dənəcikləri görmüsünüzmü?" sualı ilə sinfə müraciət edin. "Həmin qar dənəcikləri bir-birinə oxşayırmı?" sualı ilə sinfə müraciət edərək cavab almağa çalışın. Sonra məlumat verin ki, qar dənəcikləri çox fərqli naxışlara malik olur. Bu mənada təbiətin özünü də əsl nəqqaş adlandıra bilərik. Şagirdlərə qışda lupa vasitəsilə bunu müşahidə etməyi tövsiyə edin. Yaxud əldə etdiyiniz böyüdülmüş şəkilləri sinifdə nümayiş etdirməyiniz də mümkündür.

**VII mərhələ.** Sonda bu nəticəyə gəlinir ki, Günəşin istisi nəticəsində dənizlərdən və okeanlardan su buxarlanıb havaya qalxır və bulud əmələ gəlir. Buludlardan yağan yağıntı yenidən yerə qayıdır. Təbiətdə buna suyun dövranı deyilir.

**VIII mərhələ.** Qiymətləndirmə zamanı "nümayiş etdirir", "izah edir", "fərqləndirir" kimi meyarlardan istifadə edə bilərsiniz.

LAYİHƏ

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Suyun təbiətdəki hallarını tanıdığını nümayiş etdirir. | | | | |
| Suyun təbiətdə necə dövran etdiyini sadə şəkildə izah edir. | | | | |

LAYİHƏ

# 16. COĞRAFİ OBYEKTLƏR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.1.2. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır.<br>1.2.1. Coğrafi obyektlərin (dağ, təpə, dərə, çay, göl) yaranma səbəblərini izah edir. | | |
| **T.N.:** Dağı, təpəni, dərəni, düzənliyi, çayı, gölü seçir, əlamətinə görə fərqləndirir və yaşadığı ərazini coğrafi baxımdan təsvir edir. | | |
| **İnteqrasiya:** Azərb. d.: 1.2.1., 4.1.3., Texn.: 1.2.2. | | |
| cütlərlə, böyük qruplarla və kollektivlə iş | təsviretmə, anlayışın çıxarılması | dərslik, şəkillər, rəngli kağız, yapışqan, karton |

**I mərhələ.** Motivasiya ilə bağlı dərslikdəki şəklə müraciət edə bilərsiniz. "Şəkildə hansı təbiət hadisələrini və coğrafi obyektləri görürsünüz?", "Sizcə, təbiətdəki temperatur dəyişkənliyi, yağışlar, sel, zəlzələ coğrafi obyektlərin yaranmasına səbəb ola bilərmi?", "Siz belə coğrafi obyektlər haqqında nə eşitmisiniz?" kimi sualları verməklə şagirdlərdən müəyyən cavablar ala bilərsiniz.

**II mərhələ.** Qeyd edilən suallardan sonra siz tədqiqat sualını belə müəyyənləşdirə bilərsiniz: "Coğrafi obyektlər necə yaranır?"

**III mərhələ.** Dərsin gedişində "Yaddaş kartı"nda olan bir fikri də şagirdlərin diqqətinə çatdırın: "Dağıdıcı gücə malik olan zəlzələ və daşqınlardan sonra gözəl təbiət mənzərəsi də yarana bilər".

**IV mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaratmaq məqsədilə dərsliyin 51-ci səhifəsindəki tapşırıqlardan istifadə edə bilərsiniz. Bu sualları qruplara, cütlərə də verə bilərsiniz: "Yaşadığınız ərazidə və ölkəmizdə hansı coğrafi obyektləri tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın", "Sizcə, dəniz və çayı bir-birindən fərqləndirən əsas xüsusiyyətlər hansıdır?", "Hansı dənizlər, çaylar haqqında eşitmisiniz? Onların hansı Azərbaycandadır?" və s. Cavablar dinlənilir və müzakirə olunur.

**V mərhələ.** **"**Maraqlıdır" rubrikasında Göygölün yaranması ilə bağlı məlumat təqdim edilib. Şagirdlərdə mövzuya maraq yaratdıqdan sonra Göygölün yaranması haqqında videoçarx nümayiş etdirilə bilər. Bu, coğrafi obyektlərin yaranması ilə bağlı real təsəvvürün formalaşmasına yardımçı olacaqdır.

https://www.youtube.com/watch?v=FEOyWD5bxMg

**VI mərhələ.** "Birlikdə edək" rubrikasında şagirdlərə müxtəlif coğrafi obyektləri hazırlamaq tapşırığı verilir. Bu tapşırığı qruplarla, yaxud kollektivlə işləmək daha məqsədəuyğundur. Bunun üçün sizə rəngli kağız, qayçı, kley, maket üçün qalın karton, yapışqan və s. lazım olacaq. Nümunə olaraq hazır maketləri də əvvəlcədən şagirdlərə nümayiş etdirə bilərsiniz.

**VII mərhələ.** Dərsin sonunda kollektiv olaraq bu nəticəyə gəlinir ki, yerin daxili qüvvəsi və təbii hadisələr nəticəsində təpələr, dağlar, suyun torpağı yuması nəticəsində dərələr yaranır.

LAYİHƏ

**VIII mərhələ.** Qiymətləndirməni bu meyarlar əsasında müəyyənləşdirin: “sadalayır”, “seçir”, “fərqləndirir”.

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Coğrafi obyektlərin (dağ, təpə, dərə, çay, göl) yaranma səbəblərini izah edir. | | | | |
| Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır. | | | | |

LAYİHƏ

# 17. ÜFÜQ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir.<br>1.2.2. Üfüqün cəhətlərini təyin edir. | | |
| **T.N.:** Günəşin yerinə və başqa əlamətlərə görə üfüqün cəhətlərini təyin edir. | | |
| **İnteqrasiya:** İnfor.: 2.1.1., 2.1.3., Texn.: 1.2.2. | | |
| kollektivlə, qruplarla və cütlərlə iş | beyin həmləsi, müzakirə | dərslik, kompas, qlobus, iş vərəqləri |

**I mərhələ.** Motivasiya ilə bağlı dərslikdə verilən şəkillərdən istifadə edə bilərsiniz. "Şəkillər arasında hansı oxşar və fərqli xüsusiyyətləri görürsünüz?", "Göylə dənizin, göylə torpağın birləşdiyi yeri necə adlandıra bilərik?", "Sizcə, Günəş çıxdığı yerdəmi batır?" kimi suallar sizə yardımçı olacaqdır. Yaxud motivasiyanın qurulması üçün "İnsanlar öz istiqamətlərini tapmaq üçün hansı vasitədən istifadə edirlər" sualından da istifadə edə bilərsiniz. Yəqin, hər kəs öz versiyasını təqdim edəcək. Bu cavabların içində "kompas" cavabını da eşidəcəksiniz.

**II mərhələ.** Bundan sonra tədqiqat sualını müəyyənləşdirə bilərsiniz: "Üfüqün hansı cəhətləri var?"

**III mərhələ.** Yaddaş kartındakı məlumatı şagirdlərin diqqətinə çatdıraraq dərs ərzində öyrəndikləri biliyi bir qədər də möhkəmləndirə bilərsiniz: "Günəş çıxan tərəf Şərq, batan tərəf Qərbdir".

**IV mərhələ.** Artıq şagirdlər göyün yerə bitişik kimi görünən sərhədinə üfüq xətti deyildiyini bilirlər. Cəhətlərinin necə müəyyənləşdirildiyini də həmçinin. Ona görə də onların sərbəst işləməsinə şərait yaratmaq olar. Bunun üçün dərsliyin 53-cü səhifəsindəki suallardan istifadə edə bilərsiniz: "Günəşin çıxması və batması eyni yerdəmi baş verir?", "Üfüqün hansı cəhətləri bir-birinə əks tərəfdə yerləşir?", "Ağacların üstünə yağan qar bütün tərəflərdə eyni cür ərimir. Sizcə, o daha çox hansı tərəfdə əriyə bilər?" Bu sualların cavablandırılmasını qruplarla da təşkil edə bilərsiniz.

**V mərhələ.** Şagirdlərlə meşədə azdığınız zaman kompas olmadan üfüqün cəhətlərini tapmağın mümkün olduğunu öyrətməyə çalışın. Şimal tərəfin daha soyuq olduğunu qeyd edərək "Ağacın şimal, yoxsa cənub tərəfdən qabığı daha qalın olar?", "Ağacın üzərinə yağan qar cənub, yoxsa şimal tərəfdə daha tez əriyər?" kimi suallar verməklə onları istiqamətləndirin. Daha sonra şagirdlərdən ağac qabığının şimal tərəfdən daha qalın olacağını, cənub tərəfdən daha tez əriyəcəyi cavabını almağa çalışın.

**VI mərhələ.** "Maraqlıdır" rubrikasında ilk kompasın Çində yarandığı haqqında məlumat verilib. Siz dərslikdəki məlumatı bir qədər də dərinləşdirə bilərsiniz. Hətta dərslikdə olduğu şəkildə göstərilən ilk kompasla müasir kompası müqayisə də etmək olar. Bu, şagirdlərin daha çox marağına səbəb olacaqdır.




LAYİHƏ

**VII mərhələ.** Kollektivlə iş qurmaq üçün dərsliyin 53-cü səhifəsində verilmiş "Birlikdə edək" rubrikasının tapşırığından istifadə edə bilərsiniz. Şagirdlər əvvəlcə dairə halında düzülərək bir-birinin şərqində, qərbində, cənubunda, şimalında duran şagirdləri müəyyənləşdirə bilərlər.

**VIII mərhələ.** Dərsin sonunda ümumiləşdirmə aparın. Nəticə olaraq qeyd edirsiniz ki, Günəş çıxan tərəf Şərq, batan tərəf Qərb adlanır. Günəşin çıxmasına tərəf dayandıqda sol tərəfimiz Şimal, sağ tərəfimiz Cənubu göstərir.

**IX mərhələ.** Qiymətləndirmə cədvəlini əvvəlcədən tərtib edin.

| **Qruplar** / **Meyarlar** | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Üfüqün cəhətlərini təyin edir. | | | | |
| Üfüqün cəhətlərini kompasın köməkliyi ilə təyin edir. | | | | |
| Üfüqün cəhətlərini təbii əlamətlərə görə təyin edir. | | | | |

LAYİHƏ

# 18. ƏTRAF MÜHİT

| | | |
|---|---|---|
| **Alt standartla:** 1.4.1. Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir.<br>1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir. | | |
| **T.N.:** Ətraf mühiti çirkləndirən mənbələri şərh edir. | | |
| **İnteqrasiya:** İnfor.: 2.2.1., 2.2.2., Təs. in.: 3.1.1., Xarici d.: 2.2.3. | | |
| cütlərlə və kiçik qruplarla iş | müzakirə, təsviretmə | dərslik, şəkillər, iş vərəqləri, plastik qablar, qum saatı, karton qutu |

**I mərhələ.** Motivasiya ilə bağlı dərslikdəki şəkillərə müraciət edə bilərsiniz. Şagirdlərdən şəkillərdə gördüklərini təsvir etməyi xahiş edin. İki şəkil arasındakı fərqi tapmalarını istəyin. “Ətraf mühitin qorunması dedikdə nə başa düşürsünüz?”, “Ətraf mühiti nədən və kimdən qorumaq lazımdır?”, “Ekoloji çirklənmə haqqında nə bilirsiniz?”, “Təbiətə ziyan vuran vasitələri sadalayan”, “Onların aradan qaldırılması üçün nə etmək olar?”, “Uşaqlar təbiətə ziyan vura bilərmi?” kimi yönləndirici suallardan istifadə edə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını bu cür müəyyənləşdirə bilərsiniz: “Ətraf mühiti çirkləndirən mənbələr hansılardır və onları necə aradan qaldırmaq olar?”

**III mərhələ.** Yaddaş kartında verilmiş “Plastik qablar tullantıya çevrildikdə çürümür” məlumatını şagirdlərin diqqətinə çatdırın və bu faktın ətraf mühitin qorunması ilə əlaqəsi üzərində fikir mübadiləsi aparın. Müəllim əlavə olaraq məlumat verə bilər ki, plastik qablar, polietilen torbalar çürüyərək məhv olmur. Onların torpağa qarışması üçün 450-500 il vaxt lazımdır. Bu isə onların təbiəti zibillədiyi anlamına gəlir.

**IV mərhələ.** Şagirdlərin dərsliyin 55-ci səhifəsində verilmiş tapşırıqlardan müstəqil işləməsini təmin etmək üçün istifadə edə bilərsiniz. Şagirdlərdən şəkilləri təsvir etməklə onlardan hansında təbiətə ziyan vurulduğunu əsaslandırmağı istəyin. Həmçinin çıxış yollarını göstərmələrini tapşırın. “Təbiətə vurduğumuz ziyanlar bizim sağlamlığımıza necə təsir göstərəcək?” sualının da cavabını almağa çalışın.

**V mərhələ.** “Maraqlıdır” rubrikasında Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan “Tullantıdan sənətə” adlı muzey haqqında məlumat verilib. Şagirdləri muzeyi görməyə təşviq edə, eyni zamanda muzeydən çəkilmiş şəkilləri nümayiş etdirməklə onlarda maraq yarada bilərsiniz. Hətta şagirdlərlə birlikdə hansısa tullantıdan sənət əsəri düzəltməyə çalışmaq da mümkündür.

**VI mərhələ.** “Birlikdə edək” rubrikasında verilən tapşırıq qruplarla iş üçün nəzərdə tutulub. Qutuya müxtəlif əşyaları dolduraraq sərf etdiyiniz vaxtı ölçün. Sonra həmin əşyaları çıxarıb yerlərinə qoymalarını istəyin. Bunun üçün sərf edilən vaxtı müəyyənləşdirin. “Sizcə, nə üçün ikinci işə daha çox vaxt getdi?” sualını verməklə şagirdlərin diqqətini dağıtmaq, zibilləmək üçün daha az, təmizləmək üçün isə daha çox zaman tələb edildiyinə yönəldin.

**VII mərhələ.** Dərsin sonunda bu nəticəyə gəlin ki, ətraf mühitin çirklənmə yolları müxtəlifdir və onları aradan  qaldırmaq mümkündür.



LAYİHƏ

**VIII mərhələ.** Qiymətləndirməni aşağıdakı şəkildə apara bilərsiniz:

| Meyarlar \ Qruplar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir. | | | | |
| Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir. | | | | |
| Ətraf mühiti çirkləndirən mənbələri sadalayır. | | | | |

LAYİHƏ

# LAYİHƏ. XƏZİNƏ AXTARIŞI

| |
|---|
| **Alt standartlar:** 1.2.2. Üfüqün cəhətlərini təyin edir. |
| **İş forması:** böyük qruplarla |
| **Resurslar:** kompas, kiçik sandıq, bayraq, xəzinə tapmaq üçün xəritə. |

**I mərhələ.** Motivasiyanı qurmaq üçün “Xəzinə axtarışına çıxacağınızı şagirdlərə elan edin. Öncədən xəzinənin harada olacağına aid xəritələr hazırlayın. Özünüzlə kompas götürün. Elə edin ki, sandığın içərisində bayraq olduğunu və sandığın harada gizlədildiyini şagirdlər görməsinlər. Layihə məktəbin həyatında reallaşdırılmalıdır. Xəzinə axtarışına çıxmazdan əvvəl şagirdlərlə sorğu aparmaq yaxşı olar: “Üfüqün hansı cəhətləri var?”, “Üfüqün cəhətlərini necə təyin edirik?”, “Üfüqün cəhətlərini təyin etməyi nə üçün bacarmalıyıq?” və s.

**II mərhələ.** Şagirdlər hərəkət xəritəsindəki göstərişlərə əməl edərək xəzinənin yerini tapmağa çalışırlar. Göstərişlər “iki addım şərqə”, “üç addım şimala” , “beş addım cənuba” şəklində verilməlidir. Bu zaman kompasdan da istifadə olunmalıdır.

**III mərhələ.** Göstəriş xəritəsi və kompas vasitəsilə sandığı tapılır. Sizcə, sandıqda nə var? Cavab olaraq Azərbaycan bayrağı dalğalandırılır.

**IV mərhələ.** Qiymətləndirməni “sadalayır”, “fərqləndirir”, “əməl edir”, “fəaldır”, “izah edir”, “mühakimə yürüdür” kimi fəaliyyətlər əsasında apara bilərsiniz.

| Meyarlar | I qrup | II qrup | III qrup |
|---|---|---|---|
| Layihədə bütün qrup üzvləri iştirak etdi. | | | |
| Axtarış düzgün aparıldı. | | | |
| Cəhətlərin müəyyən edilməsində bütün qrup üzvləri iştirak etdi. | | | |
| Layihənin həyata keçirilməsində sistemlilik gözlənildi. | | | |

LAYİHƏ

# HÜQUQLAR



19. UŞAQ HÜQUQLARI
20. DÖVLƏTİN ƏLAMƏTLƏRİ
21. PULLAR
22. BÜDCƏ
LAYİHƏ. BÜDCƏNİ İDARƏ EDİRİK



LAYİHƏ

# 19. UŞAQ HÜQUQLARI

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.4.2. Özünün və yoldaşlarının hüquqlarının pozulmasına münasibət bildirir. | | |
| **T.N.:** Özünün və yoldaşlarının hüquqlarını bilir. | | |
| **İnteqrasiya:** İnfor.: 2.1.1., Riy.: 5.2.1., 5.2.2. | | |
| kollektiv və böyük qruplarla iş | izahetmə, müzakirə | dərslik, şəkillər, iş vərəqləri |

**I mərhələ.** Mövzu ilə bağlı motivasiya qurmaq üçün dərslikdəki şəkillərdən istifadə edin. Bütün illüstrasiyaların məzmunu təsvir edildikdən sonra “Şəkillərdən hansında uşaqların hüquqları pozulub?” sualını verin. Daha sonra “Uşaqların hüquqları hansılardır?”, “Özünüzün və yaxud ətrafınızda olan uşaqların hansı hüquqlarının pozulmasının şahidi olmusunuz?”, “Belə hallarda necə davranmaq lazımdır?” kimi yardımçı suallardan istifadə edə bilərsiniz. Öz fikrini izah edən şagirdlərdən birinin sözünü kəsərək onun hansı hüququnun pozulduğunu sinifdən soruşa bilərsiniz. Siz hətta motivasiyanı da bu təcrübə üzərində qurmaq imkanına maliksiniz. Əlbəttə ki, seçim sizindir.

**II mərhələ.** Tədqiqat sualını belə müəyyənləşdirə bilərsiniz: “Uşaq hüquqlarının pozulması nə deməkdir?”

**III mərhələ.** Şagirdlərin diqqətinə yaddaş kartında verilmiş fikri təqdim edə bilərsiniz: “Fikrini sərbəst ifadə etmək əsas hüquqlardan biridir”.

**IV mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaradın. Dərsliyin 59-cu və 60-cı səhifələrində verilən “Sahib olduğunuz hüquqlardan hansı bəzən pozulur və nə səbəbə?”, “Hansısa hüququnuzun pozulduğunu düşündükdə kimə müraciət etməlisiniz?”, “Sizin bütün istəklərinizin yerinə yetirilməməsi hüquqlarınızın pozulmasıdırmı?”, “Uşaq hüquqlarını kimlər müdafiə edir?” kimi suallar ətrafında şagirdlərin cütlərlə, qruplarla işini təmin edə bilərsiniz.

**V mərhələ.** “Maraqlıdır” rubrikasında 2017-ci ildə məşhur Nobel mükafatını alanlardan biri olan Məlalə Yusəfzay haqqında məlumat verilib. Onun məhz uşaqların oxumaq hüququnu müdafiə etdiyi, mübarizəsinə 11 yaşından başladığı haqqında siz də şagirdlərə məlumat verin. Onları hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyət göstərməyə həvəsləndirin.

**VI mərhələ.** “Birlikdə edək” rubrikasındakı tapşırığı qruplarla və ya kollektivlə işləmək olar. Dərsliyin 59-cu səhifəsində verilmiş nümunədə olduğu kimi, şagirdlərin də hansı halların onların hüquqlarının pozulmasına aid olduğunu seçməsinə çalışın.

**VII mərhələ.** Ümumiləşdirmə zamanı şagirdlərin belə nəticəyə gəlməsinə nail olun: “Hər bir vətəndaşın hüquqları var. Ölkəmizdə hər bir vətəndaşın hüquqları dövlət tərəfindən qorunur”.

**VIII mərhələ.** Qiymətləndirmə aşağıdakı fəaliyyətlər əsasında aparıla bilər: “izah edir”, “sadalayır”, “tanıyır”. Bu zaman smayliklərdən istifadə etsəniz, daha maraqlı olar.

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Özünün və yoldaşlarının hüquqlarını tanıyır. | | | | |
| Hüquqları sadalayır. | | | | |
| Özünün və yoldaşlarının hüquqlarının pozulmasına münasibət bildirir. | | | | |
| Hüquq pozuntusu zamanı kimə müraciət etməli olduğunu bilir. | | | | |

LAYİHƏ

# 20. DÖVLƏTİN ƏLAMƏTLƏRİ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.3.1. Dövlətin əlamətlərini (ərazi, ordu, milli pul, rəhbər, paytaxt) tanıyır. | | |
| **T.N.:** Dövlətin əlamətlərini tanıdığını nümayiş etdirir. | | |
| **İnteqrasiya:** İnfor.: 3.3.4., Xarici d.: 1.1.2. | | |
| kollektiv və böyük qruplarla iş | təsviretmə, izahetmə, müzakirə | xəritə, şəkillər, dərslik, iş vərəqləri |

**I mərhələ.** Motivasiyanı dərslikdəki şəkillər üzərində qura bilərsiniz. Bununla bağlı şagirdlərə aşağıdakı sualları vermək olar: "Azərbaycan dövləti haqqında nə bilirsiniz?", "28 May nə üçün Respublika Günü kimi qeyd edilir?", "Ölkəmizin paytaxtı hansı şəhərdir?", "Respublikamıza kim rəhbərlik edir?", Ölkəmizi kimlər qoruyur?"

**II mərhələ.** Tədqiqat sualını aşağıdakı kimi müəyyənləşdirə bilərsiniz: "Dövlətin əlamətləri hansılardır?"

**III mərhələ.** "Yaddaş kartı"nda verilən məlumatı şagirdlərin diqqətinə çatdırın: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Qərarı 1991-ci il oktyabrın 18-də qəbul edilib". Daha sonra İkinci Qarabağ müharibəsində Azərbaycan ordusunun rəşadətindən danışmaq yaxşı olar.

**IV mərhələ.** Şagirdlərin sərbəst işləməsinə şərait yaratmaq məqsədilə 62-ci səhifədə verilmiş tapşırıqlardan istifadə edə bilərsiniz. "Azərbaycanın dövlət rəmzləri hansılardır?", "Bir dilin dövlət dili elan edilməsi nə deməkdir?", "Sizcə, paytaxtların digər şəhərlərdən fərqi nədir?" və s. suallardan istifadə edə bilərsiniz. Bu tapşırıqları şagirdlərə cütlərlə də işlədə bilərsiniz.

**V mərhələ.** "Birlikdə edək" rubrikasında verilmiş tapşırığı kollektiv şəkildə yerinə yetirə bilərsiniz. Bu işin lövhədə aparılması daha məqsədəuyğundur. Siz əvvəlcədən atributlarla bağlı Venn diaqramı da hazırlaya bilərsiniz. Bu zaman şagirdlərdən yalnız seçim aparmaq tələb ediləcək.

**VI mərhələ.** "Maraqlıdır" rubrikasındakı yazıya diqqət yetirin. Dərsin bu hissəsində videoçarxdan da istifadə etmək olar. https://www.youtube.com/watch?v=bISW6pyaQuc

**VII mərhələ.** Ümumiləşdirmə zamanı belə bir nəticə çıxara bilərsiniz ki, vətənimiz Azərbaycan Respublikasıdır. Onun əsas əlamətləri müstəqilliyi, ərazisi, rəhbəri, paytaxtı və ordusudur.

**VIII mərhələ.** Qiymətləndirmə zamanı "fərqləndirir", "tanıyır", "şərh edir", "təsvir edir" kimi fəaliyyət komponentlərinin üzərində dayanın.

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Dövlətin əlamətlərini (ərazi, ordu, milli pul, rəhbər, paytaxt) tanıyır. | | | | |
| Dövlətin əlamətləri ilə rəmzlərini fərqləndirir. | | | | |
| Dövlətin əlamətlərini şərh edir. | | | | |

LAYİHƏ

# 21. PULLAR

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.2.3. Milli pulla müvafiq hesablamalar aparır. | | |
| **T.N.:** Şəxsi büdcəni tərtib edir və hesablamalar aparır. | | |
| **İnteqrasiya:** Riy.: 1.1.1., 1.2.1., 1.2.3., 1.2.5., 1.2.7., 1.3.2., 2.3.1. | | |
| kollektiv və qruplarla iş | izahetmə, təsviretmə | dərslik, manat və qəpiklər, şəkillər |

**I mərhələ.** Motivasiyanı şəkillərin köməkliyi ilə qura bilərsiniz. "Ailə büdcəsi necə əmələ gəlir?", "Gəliri nə təşkil edir?", "Ailənin xərclərinə daha çox nələr daxildir?", "Gözlənilməz xərclərin ödənilməsi üçün ailə nə etməlidir?", "Müasir dövrdə alış-veriş daha çox hansı yolla aparılır?", "İnsanların pulları ilə tələbatları arasında nə kimi əlaqə var?", "Ailə büdcəsində olan pullar, sizcə, hara xərclənir?" və s. suallardan istifadə edə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını bu cür müəyyənləşdirə bilərsiniz: "Cibxərcliyini daha yaxşı necə xərcləmək olar?"

**III mərhələ.** "Yaddaş kartı"nda qeyd edilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: "Azərbaycanın milli puluna hörmətlə yanaşmalısınız. Pulu cırmaq, üstünə yazı yazmaq, şəkil çəkmək olmaz!" Bununla bağlı müzakirə keçirməklə şagirdlərdə milli pula hörmət etməli olduqları düşüncəsini möhkəmləndirməlisiniz.

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyət üçün hazırlayın. Bunun üçün dərsliyin 64-cü səhifəsində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: "Bütün Azərbaycan pullarının üzərində nəyin təsviri var?" (Bu zaman milli pulların təsvirini ekranda verə bilər və yaxud şəkillərini göstərə bilərsiniz), "Gündəlik cibxərclikləri nə üçün nəzərdə tutulub?", "Daha böyük xərc tələb edən məqsədlərə çatmaq üçün nə etmək lazımdır?", "Azərbaycanda alış-veriş hansı pulla aparılır? Bu zaman başqa dövlətlərin pullarında istifadə edilə bilərmi?" və s. Bu tapşırıqların cütlərlə işlənməsini də təmin edə bilərsiniz.

**V mərhələ.** Şagirdlərin diqqətini "Maraqlıdır" rubrikasında təqdim edilmiş "İlk kağız pullar hələ 3 min il əvvəl Çində yaradılıb" məlumatına çəkə bilərsiniz. Əslində, siz bu məlumatdan motivasiyanın qurulması və ya şagirdlərin evdə müstəqil araşdırma aparması üçün də istifadə edə bilərsiniz.

**VI mərhələ.** "Birlikdə edək" rubrikasında təqdim edilmiş tapşırığı kollektivlə işləyin. Bu tapşırığın icrası zamanı müəllim ekranda milli əskinazlarımızı nümayiş etdirə bilər.

**VII mərhələ.** Sonda şagirdlərlə birlikdə ümumi nəticəyə gəlin ki, hər bir dövlətin öz pul vahidi var. Azərbaycanın pul vahidi manatdır. Hər bir vətəndaş öz dövlətinin puluna hörmətlə yanaşmalıdır.

**VIII mərhələ.** Qiymətləndirmə zamanı "izah edir", "müvafiq hesablamalar aparır", "tanıyır", "tərtib edir" kimi fəaliyyətlərə istinad edə bilərsiniz.

| Qruplar / Meyarlar | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|
| Milli pulları tanıyır. | | | | |
| Milli pulla müvafiq hesablamalar aparır. | | | | |
| Şəxsi büdcəsi ilə bağlı hesablamalar aparır. | | | | |

LAYİHƏ

# 22. BÜDCƏ

| | | |
|---|---|---|
| **Alt standartlar:** 2.2.2. Verilmiş şərtlərə uyğun şəxsi büdcəsini tərtib edir.<br>2.2.3. Milli pulla müvafiq hesablamalar aparır. | | |
| **T.N.:** Şəxsi büdcəsini tərtib edir və müvafiq hesablamalar aparır. | | |
| **İnteqrasiya:** Riy.: 1.1.1., 1.2.1., 1.2.3., 1.2.5., 1.2.7., 1.3.2., 2.3.1., İnf.: 2.1.2. | | |
| kollektiv, cütlərlə və böyük qruplarla iş | dinləyib anlama, diskusiya | dərslik, şəkillər, pullar |

**I mərhələ.** Motivasiya ilə bağlı dərslikdəki şəkillərə müraciət edə bilərsiniz. Şagirdlərə şəkillərdə gördükləri haqqında danışmağı tapşırın. Onları “Ailə büdcəsi necə əmələ gəlir?”, “Gəliri nə təşkil edir?”, “Xərclər daha çox nəyə sərf olunur?”, “Gözlənilməz xərclərin təmin edilməsi üçün ailə nə etməlidir?”, “Sizin şəxsi büdcəniz necə yaranır?”, “Ailə büdcəsinə kömək etmək üçün  nə edə bilərsiniz?” və s. suallarla yönləndirmək olar.

**II mərhələ.** Tədqiqat sualını belə müəyyənləşdirin: “Büdcə nədir və necə yaranır?”

**III mərhələ.** “Yaddaş kartı”nda qeyd edilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: “İsrafçılığa yol verməmək qənaət etmək üçün ən yaxşı vasitədir”. Daha sonra büdcənin qorunması üçün qənaətin vacib olduğu ilə bağlı müzakirə apara bilərsiniz.

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyət üçün hazırlayın. Bunun üçün dərsliyin 66-cı səhifəsində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: “Ailə budcəsindən pul xərclənən zaman əvvəlcə hansı tələbatlar nəzərə alınmalıdır?”, “Qənaət nədir, necə edilməlidir?” “İsrafcılıq” anlayışı ilə “qənaət” anlayışı arasında necə əlaqə olduğunu müəyyənləşdirin”, “Gündəlik cibxərcliyi hansı məqsədlər ücün nəzərdə tutulur?”, “Daha böyük xərc tələb edən məqsədlərə çatmaq istəsəniz, nə etməlisiniz?”, “Gündəlik həyatınızda şəkildə göstərilənlərdən hansından istifadəni azaltmaqla qənaət edə bilərsiniz?”. Bu sual və tapşırıqların cütlərlə və ya qruplarla işlənməsini təmin edin.

**V mərhələ.** Dərsliyin “Maraqlıdır” rubrikasında qənaət etmək üçün marketə gedərkən lazım olanların siyahısının yazılmasının vacibliyi tövsiyə edilir. Siz bu məlumatlardan motivasiyanın qurulması və ya təcrübə mərhələsi üçün də istifadə edə bilərsiniz. “Qənaət etmək üçün siz nə təklif edərdiniz?” sualı ilə şagirdlərin də fikirlərini və mülahizələrini almağa çalışın. Bu mərhələdə şagirdlərlə  diskussiya aparmaq olar.

**VI mərhələ.** “Birlikdə edək” rubrikasında qruplarla 6 nəfərdən ibarət bir ailənin büdcə və xərclərini hesablamaq tapşırığı verilib. Qrup işini təmin edin. Qruplar öz işlərini təqdim etdikdən sonra müzakirə keçirə bilərsiniz.

**VII mərhələ.** Yaradıcı tədbiqetmə üçün ev tapşırığı olaraq hər bir şagirdə həftə ərzində büdcəsini və xərclərini cədvəl formasında hazırlamaq tapşırıla bilər.

**VIII mərhələ.** Ümumiləşdirmə apararaq şagirdlərlə birlikdə belə nəticəyə gəlin ki, büdcə gəlirlərdən və xərclərdən ibarətdir. Onun daha yaxşı idarə olunması üçün qənaət etmək və israfçılığa yol verməmək lazımdır.

**IX mərhələ.** Qrup işlərini, şagirdlərin fərdi cavablarını dəyərləndirin. Qiymətləndirmə aparın.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Büdcənin nə olduğunu bilir. | | | | |
| 2. | Şəxsi büdcəsini tərtib edir. | | | | |
| 2. | Şəxsi büdcəsi  ilə bağlı  müvafiq hesablamalar aparır. | | | | |

LAYİHƏ

# LAYİHƏ. BÜDCƏNİ İDARƏ EDİRİK

| | 
|---|
| **Alt standartlar:** 2.2.3. Milli pulla müvafiq hesablamalar aparır. |
| **İş forması:** böyük qruplarla iş |
| **Resurslar:** dəftər, şəkillər, qələm |

**I mərhələ.** Motivasiyanı "Gəldi bahar bayramı" mahnısı ilə başlamaq olar.

**II mərhələ.** Şagirdlərə bahar bayramı ərəfəsində ailə büdcəsinin idarə edilməsi tapşırılır.

**III mərhələ.** Onlara 160 manat büdcə ilə bayram hədiyyələrinin alınması, evdə süfrə açılması üçün xərclərin təmin edilməsi tapşırılır.

**IV mərhələ.** Əgər verilən pulla xərclər arasında uyğunsuzluq yaranarsa, nəyə qənaət edəcəklərinin müzakirə edilməsi məsləhət görülür.

**V mərhələ.** Sonda büdcəni nəzərə alaraq hansı qrupun büdcəni düzgün idarə etdiyi müəyyənləşdirilir.

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Layihədə bütün qrup üzvləri iştirak etdi. | | |
| Hesablamalar düzgün aparıldı. | | |
| Təqdimatçı fikirlərini aydın və dəqiq ifadə etdi. | | |
| Mövzu ilə bağlı düzgün məlumat əks olundu. | | |
| Layihənin hazırlanmasında sistemlilik gözlənildi. | | |

LAYİHƏ

# SAĞLAMLIQ



23. SAĞLAM HƏYAT
24. EHTİYAT TƏDBİRLƏRİ
25. TƏHLÜKƏLİ AVADANLIQLAR
26. QƏZALARDAN MÜDAFİƏ



LAYİHƏ

# 23. SAĞLAM HƏYAT

| | | |
|---|---|---|
| **Alt standartlar**: 4.1.1. Sağlam həyat tərzi haqqında mülahizələrini şərh edir.<br>4.1.2. Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir. | | |
| **T.N.:** Sağlam həyat tərzi və yoluxucu xəstəliklər barədə fikirlərini şərh edir. | | |
| **İnteqrasiya:** Fiziki. tər.: 1.1.2., 1.1.3., İnfor.: 1.1.1., Riy.: 5.2.2. | | |
| kollektiv və böyük qruplarla iş | müzakirə, mübadilə | dərslik, iş vərəqləri, şəkillər |

**I mərhələ.** Motivasiya dərslikdəki şəkillər üzərində qurula bilər. “İnsanlar öz sağlamlıqlarının qayğısına qalmaq, onu qorumaq üçün hansı vacib şərtlərə əməl etməlidirlər?”, “Hansı şəkildə bu şərtlər pozulur?”, “Sabundan tez-tez istifadə etmək nə üçün sağlamlığınızı qorumağa yardımçı olur?”, “Sizcə, sağlam olmaq üçün başqa hansı qaydaları bilmək vacibdir?” sualları ilə şagirdləri tədqiqat sualına yönləndirə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını bu cür müəyyələşdirməyiniz mümkündür: **“**Sağlam həyat nədir və sağlam yaşamaq üçün nə etmək lazımdır?”

**III mərhələ.** “Yaddaş kartı”nda verilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: “İnsanlar gigiyena qaydalarına əməl etməklə təkcə özlərini deyil, başqalarını da yoluxucu xəstəliklərdən qoruya bilərlər”. Bu qaydalarla bağlı müzakirənin aparılması da mümkündür.

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyət üçün hazırlayın. Bunun üçün dərsliyin 66-cı səhifəsində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: “Şəkildə təsvir edilmiş vəziyyətlə sağlamlığımız arasında hansı əlaqə var? Fikirlərinizi bildirin. Nə üçün səmimi ünsiyyət sağlamlığa müsbət təsir göstərir?” Şagirdlərlə bu mövzu üzərində xüsusi müzakirə təşkil edə bilərsiniz. Dərsliyin 70-ci səhifəsində verilmiş sual və tapşırıqlardan cütlərlə işin təşkili üçün istifadə etmək olar: “Sağlam olmaqla yaxşı əhvali-ruhiyyədə olmaq arasında bağlılıq varmı?”, “Hər gün etməli olduğunuz hansı gigiyena qaydalarını bilirsiniz? Onları vərdiş halına gətirmək üçün nə etmək lazımdır?”, “Yoluxucu xəstəliklər haqqında nə bilirsiniz? Onlardan necə qorunmaq olar?”, “Peyvənd haqqında nə bilirsiniz? Peyvənd olunmaq nə ücün vacibdir?”, “Xəstələndikdə asqıran, öskürən zaman başqalarını yoluxdurmamaq üçün aşağıdakı hansı davranışları düzgün hesab edirsiniz?”, “Uzun müddət telefon və kompüterə baxmaq nə üçün sağlamlığınıza ziyan vurur?”

**V mərhələ.** Dərsliyin “Maraqlıdır” rubrikasında gülüş və xoş əhval insan ömrünü uzadan və sağlamlığına müsbət təsir edən ən güclü vasitədir” məlumatı verilib. Siz bu məlumatı şagirdlərə ev tapşırığı kimi verərək onlardan bununla bağlı araşdırma aparmalarını istəyə bilərsiniz.

**VI mərhələ.** Dərsliyin “Birlikdə edək” rubrikasında təqdim edilmiş tapşırığı kollektivlə reallaşdırmağınız daha məqsədəmüvafiqdir. Bunun üçün dərslikdə təqdim edilən siyahını artırmağınız tövsiyə edilir.

**VII mərhələ.** Sonda şagirdlərlə birlikdə belə bir nəticəyə gəlin ki, insan sağlamlığı qorumaq üçün sağlam qidalanmalı, yuxu rejiminə və gigiyena qaydalarına əməl etməlidir.

LAYİHƏ

**VIII mərhələ.** Qiymətləndirməni dərs boyu aparın.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Sağlam həyat tərzi haqqında mülahizələrini şərh edir. | | | | |
| 2. | Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir. | | | | |
| 3. | Sağlam həyat tərzi üçün gigiyena qaydalarının vacibliyini bilir. | | | | |
| 4. | Sağlam həyat tərzi üçün yuxu rejiminin vacibliyini bilir. | | | | |
| 5. | Sağlam həyat tərzi üçün sağlam qidalanmanın vacibliyini bilir. | | | | |

LAYİHƏ

# 24. EHTİYAT TƏDBİRLƏRİ

<table>
<tr><td colspan="3">Alt standartlar: 4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri (gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları) sadalayır.</td></tr>
<tr><td colspan="3">T.N.: Məişətdə və ətraf mühitdə insan sağlamlığı üçün zəruri olan təhlükəsizlik qaydalarını izah edir.</td></tr>
<tr><td colspan="3">İnteqrasiya: Təs. in.: 2.2.1., Xarici d.: 2.2.2.</td></tr>
<tr><td>kollektiv və böyük qruplarla iş</td><td>müzakirə</td><td>dərslik, şəkillər</td></tr>
</table>

**I mərhələ.** Motivasiya qurmaq üçün dərslikdəki şəkillərdən istifadə etmək olar. Şagirdləri "Şəkillərdə nə əks olunub?", "Çimərlikdə çimmək nə üçün qadağan edilə bilər?", "Çimərlikdə yazılanlara diqqət etmək lazımdırmı?", "Əgər xəbərdarlıq lövhələrində yazılanlara diqqət yetirilməzsə, bu nə ilə nəticələnə bilər?" kimi suallarla yönləndirməyə çalışın.

**II mərhələ.** Tədqiqat sualını bu cür müəyyənləşdirə bilərsiniz: "İnsanlar qəzalardan mühafizə olunmaq üçün hansı ehtiyat tədbirləri görürlər?"

**III mərhələ.** "Yaddaş kartı"nda verilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: "Xəbərdarlıq nişanlarına qarşı diqqətli olmaq lazımdır! Bu sizin təhlükəsizliyiniz üçün vacibdir!"

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyətə hazırlayın. Bunun üçün dərsliyin 73-cü səhifəsində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: "Bu işarələrin nə üçün qoyulduğunu müəyyən edin və mənasını tapın. Onlardan hansı minalanmış ərazidə qoyula bilər?"



"Xatırlayın: bu işarələrə harada rast gəlmisiniz və onların mənası nədir?"



Siz bu tapşırıqları qruplarla və cütlərlə edə bilərsiniz.

**V mərhələ.** "Maraqlıdır" rubrikasındakı belə bir məlumat verilibdir: "Buzlu yolda yıxılmamaq üçün tələsməmək, aşağıdakı şəkildə yerimək və əlləri mütləq cibdən çıxarmaq lazımdır".



LAYİHƏ

Siz bu məlumatı uşaqların diqqətinə çatdırdıqdan sonra həmin yeriş texnikasını onlara nümayiş etdirə və yıxılmaqdan qorunmanın səbəblərini izah edə bilərsiniz.

**VI mərhələ.** “Birlikdə edək” rubrikasında maraqlı bir tapşırıq təqdim edilibdir. Siz bu tapşırı kollektivlə işləyə bilərsiniz: “Yaxınlıqdakı parkda təhlükəli yerləri müəyyən edək və təhlükə işarəsi hazırlayaraq orada yerləşdirək”.

Siz bunu müxtəlif ərazilərdə də həyata keçirə bilərsiniz.

**VII mərhələ.** Dərsin sonunda şagirdlərlə belə bir nəticəyə gəlirsiniz ki, öz təhlükəsizliyimizi qorumaq üçün xəbərdarlıq nişanlarına diqqətlə yanaşmalıyıq.

**VIII mərhələ.** Qiymətləndirmə dərs boyunca “sadalayır”, “tanıyır”, “izah edir” və s. fəaliyyətlərə əsasən aparıla bilər.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri (gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları) tanıyır. | | | | |
| 2. | Həyat üçün təhlükəli olan yer və obyektləri sadalayır. | | | | |
| 3. | Həyat üçün təhlükəli olan yer və obyektlərlə bağlı qoyulan nişanları tanıyır. | | | | |
| 4. | Həyat üçün təhlükəli olan yer və obyektlərlə bağlı qoyulan nişanların mənasını izah edir. | | | | |

LAYİHƏ

# 25. TƏHLÜKƏLİ AVADANLIQLAR

<table>
<tr><td colspan="3">Alt standartlar: 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, habelə alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini sadə formada təsvir edir.<br>4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri sadalayır.</td></tr>
<tr><td colspan="3">T.N.: 1. Məişətdə və ətraf mühitdə insan sağlamlığı üçün zəruri olan təhlükəsizlik qaydalarını izah edir.<br>2. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini bilir.</td></tr>
<tr><td colspan="3">İnteqrasiya: İnf.: 2.1.3.</td></tr>
<tr><td>kollektiv və böyük qruplarla iş</td><td>mübadilə, müzakirə</td><td>kərslik, iş vərəqləri, iynə, qayçı</td></tr>
</table>

**I mərhələ.** Motivasiyanın qurulması üçün dərslikdəki şəkillərə müraciət edin. Şagirdləri "Şəkillərdə gördükləriniz haqqında danışın", "Sizcə, hansı əşyalar və avadanlıqlar təhlükə yarada bilər?", "Təhlükələrin qarşısını almaq üçün nə etmək lazımdır?", "Dərman vasitələri nə üçün təhlükəlidir?" sualları ilə yönləndirə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını belə müəyyənləşdirə bilərsiniz: "Təhlükəli avadanlıqlarla necə davranmaq lazımdır?"

**III mərhələ.** "Yaddaş kartı"nda verilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: "Qazla, elektriklə çalışan avadanlıqlarla ehtiyatsız davrandıqda təhlükə yarana bilər". Siz bu fikrin üzərində müzakirə də apara bilərsiniz.

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyətə hazırlayın. Bunun üçün dərsliyin 75-ci və 76-cı səhifələrində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: "Şəkillərdə gördüklərinizi təsvir edin. Uşaqlar nəyi yanlış edirlər?", "Evdə qaz qoxusu gəldiyi zaman, ilk növbədə, nə etmək lazımdır?", "Bu alətlərdən hansı və nə zaman sizin üçün təhlükə yarada bilər?", "Şəkildə gördüyünüz əlaqə nömrələrindən nə zaman istifadə edilir?", "Hansı şəkildə avadanlıqdan ehtiyatsız istifadəyə görə yaranan təhlükə təsvir edilib?"

Siz bu tapşırıqların cütlərlə və qruplarla işlənməsinə şərait yarada bilərsiniz.

**V mərhələ.** "Maraqlıdır" rubrikasında "Qayçının 3-4 min il yaşı var. İlk qayçı qoyun qırxmaq üçün istifadə edilmişdir" məlumatı təqdim edilmişdir. Digər təhlükəli avadanlıqlarla bağlı fərqli maraqlı məlumatları verməyiniz də mümkündür.

**VI mərhələ.** "Birlikdə edək" rubrikasında Muzi və Kompun iştirakı ilə təhlükəsizlik qaydaları tərtib edilir. Siz də bu tapşırığı qrup halında işlədə bilərsiniz. Daha sonra qrupların fəaliyyətini dəyərləndirin.

**VII mərhələ.** Sonda bu nəticəyə gəlirsiniz ki, qaz və elektrik avadanlıqları, kəsici alətlərlə ehtiyatsız davrandıqda təhlükə yarana bilər. Təhlükədən uzaq olmaq üçün bu avadanlq və alətlərlə davranış qaydalarına əməl etmək lazımdır.

LAYİHƏ

**VIII mərhələ.** Qiymətləndirməni "sadalayır", "fərqləndirir" , "təsvir edir", "müəyyənləşdirir" meyarları ilə apara bilərsiniz.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarını alışdırıcı, deşici və kəsici alətləri tanıyır. | | | | |
| 2. | Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini bilir. | | | | |
| 3. | Məişətdə istifadə olunan avadanlıqlarla davranma qaydalarını bilir. | | | | |

LAYİHƏ

# 26. QƏZALARDAN MÜDAFİƏ

| | |
|---|---|
| **Alt standartlar:** | 4.3.1. Fövqəladə halları əlamətlərinə görə (təbii, texnogen) fərqləndirir.<br>4.3.2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir.<br>4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqları nümayiş etdirir. |
| **T.N.:** | 1. Məişətdə və ətraf mühitdə insan sağlamlığı üçün zəruri olan təhlükəsizlik qaydalarını izah edir.<br>2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir. |
| **İnteqrasiya:** | İnf.: 1.2.3., Riy.: 5.1.1., 5.2.1. |

| | | |
|---|---|---|
| kollektiv və böyük qruplarla iş | müzakirə, mübadilə | dərslik, iş vərəqləri, respirator, yanğınsöndürən, əleyhqaz |

**I mərhələ.** Motivasiya ilə bağlı dərslikdə verilmiş şəkillərə müraciət edə bilərsiniz. Şagirdləri "Şəkildə gördükləriniz haqqında danışın", "Hansı təbii fəlakətlər haqqında eşitmisiniz?", "İnsanların məsuliyyətsizliyi səbəbindən yaranan hansı hadisələr haqqında məlumatınız var?", "Bu hadisələri necə adlandırmaq olar?", "Sizcə, hansı hadisələr texnogen qəza adlandırılır? Onların qarşısını almaq mümkündürmü?" sualları ilə yönləndirə bilərsiniz.

**II mərhələ.** Tədqiqat sualını belə müəyyənləşdirə bilərsiniz: "Fövqəladə hadisələr zamanı hansı mühafizə vasitələrindən istifadə edilir?"

**III mərhələ.** "Yaddaş kartı"nda verilmiş məlumatı şagirdlərin diqqətinə çatdırın: "Əleyhqaz, su, qum, yanğınsöndürmə balonu qəzalar zamanı ən lazımlı vasitələrdir".

**IV mərhələ.** Sinfi sərbəst fəaliyyətə hazırlayın. Bunun üçün dərsliyin 78-ci və 79-cu səhifələrində verilmiş sual və tapşırıqlardan istifadə edə bilərsiniz: "Şəkillərdən hansında texnogen qəza baş verdiyi görünür?", "Nə üçün belə hesab edirsiniz?", "Zəlzələ baş verdiyi zaman hansı qaydalara əməl edilməlidir?", "Bu tikinti sahəsində qəzalardan qorunmaq üçün hansı işlər görülüb?", "Bu vasitələrdən hansı yanğın zamanı lazımdır?" və s.

**V mərhələ.** "Maraqlıdır" rubrikasında belə bir məlumat təqdim edilib: "Dünyada baş verən texnogen qəzalardan biri də Cernobıl qəzasıdır. Bu qəzadan sonra şüalanma nəticəsində minlərlə insan ziyan çəkmiş, böyük ərazilər yararsız hala düşmüşdür". Siz bu məlumatdan motivasiyanın qurulması üçün də istifadə edə bilərsiniz, yaxud ev tapşırığı kimi də müstəqil tədqiqat üçün yararlanmağınız mümkündür.

**VI mərhələ.** "Birlikdə edək" rubrikasında "Yanğın baş verərsə, necə rəftar etməli olduğumuzu müəyyənləşdirək. Əməl edəcəyimiz əsas qayda hansıdır?" tapşırığı təqdim edilib. Kollektiv iş üçün nəzərdə tutulan bu tapşırığı siz yazılı şəkildə, şifahi şəkildə, situativ oyun formasında reallaşdıra bilərsiniz.

**VII mərhələ.** Şagirdlərlə birlikdə bu nəticəyə gəlin ki, təbii fəlakətlər və qəzalar zamanı təmkinli olmaqla, qaydalara əməl etməklə vəziyyətdən çıxmaq mümkündür.

LAYİHƏ

**VIII mərhələ.** Qiymətləndirməni standartın tələblərinə uyğun fəaliyyətə əsaslanan meyarlarla həyata keçirə bilərsiniz.

| № | Qiymətləndirmə bacarıqları | Çətinliklə | Qismən | Orta səviyyədə | Yüksək səviyyədə |
|---|---|---|---|---|---|
| 1. | Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir. | | | | |
| 2. | Fövqəladə halları əlamətlərinə görə (təbii, texnogen) fərqləndirir. | | | | |
| 3 | Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə özünümühafizə bacarıqları nümayiş etdirir. | | | | |

LAYİHƏ

## Ədəbiyyat siyahısı


**Azərbaycan dilində**

1. Ayna Uşaq Ensiklopediyası. Bakı, Ayna Mətbu Evi, 2002.
2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2018.
3. Bunları bilmək istəyirəm. İllüstrasiyalı intellektual ensiklopediya. Bakı, Turan evi, 2013.
4. Əkbərov N. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. Bakı, “Bərəkət” nəşriyyatı, 2010.
5. Əkbərov N. Məktəbdə əxlaq və davranış qaydaları. Bakı, “Bərəkət” nəşriyyatı, 2010.
6. Əliyeva R., Mustafayev Q., Hacıyeva S. Ümumi ekologiya. Bakı, 2004.
7. Əliyev S.C., Hacıyeva H.M., Mikayılzadə N.C. Tibbi biliklərin əsasları. Bakı, 2004.
8. Əmirov M. İnsan və cəmiyyət. Bakı, 2010.
9. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
10. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları (metodik vəsait). Bakı, 2014.
11. Qasımov M. Sağlam həyat tərzi uğrunda. Bakı, 2005.
12. Məcidov Ə. Yol hərəkəti qaydaları. Ümumtəhsil məktəbləri müəllimləri üçün metodik vəsait. Bakı, 2001.
13. “Özünə və başqalarına kömək etməyi bacar” (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi), Bakı, 2004.
14. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
15. Topçiyeva Ş.Ə., Qəndilov R.T., Tağıyeva S.Ş., Qocayev Ş.Ə., Hacıyeva G.N., Məmmədova N.Ə., Hacıyeva A.T. və b. Həyati bacarıqlara əsaslanan təhsil. Çaşıoğlu, 2007.

**Rus dilində**

16. Коробкин В.И., Передельский Л.В. Экология. Ростов н/Д, Феникс, 2000.
17. Мария Эмилия Бредероде-Сантос, Джо Клейес, Ранья Фазах, Аннет Шнайдер, Жужанна Селени. Компасито – пособие по обучению детей правам человека. Совет Европы, 2008.
18. Новиков Ю.В. Природа и человек. М., Просвещение, 1991.
19. Плешаков А.А. Окружающий мир. Учебник. 2 класс. В 2-х частях.
20. Рахматова А. Роль учителя и его качества. Центр развития учителей при европейско-азербайджанском сообществе.
21. Рольф Голлоб и Петер Крапф. Изучаем права детей. Совет Европы, 2007, 2010.
22. Рустамова Л.В. Сущность и значение интеграции предмета познание мира на уроки изобразительного искусства и музыки в начальных классах//Наука и Школа, №5. 2015, с. 195–198.
23. Соколова Е.В., Нянковская Н.Н. Этикет для малышей. Ярославль, Академия развития, 2009.

**İngilis dilində**

24. International Primary. Science 2. Student’s book. Vector/Maths& Science.
25. Oxford International Primary Science 2. Cambridge International Examinations.


LAYİHƏ

# Buraxılış məlumatı

**HƏYAT BİLGİSİ 2**

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-014)*

**METODİK VƏSAİTİ**


**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Cabbarlı**
**Həqiqət Abbasova**
**Sevinc Məmmədova**



Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Yeganə Rüstəmova**
Üz qabığının dizayneri **Nurlan Nəhmətov**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nigar Əliyeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**



**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 8,3. Fiziki çap vərəqi 10. Formatı $57x82^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 80.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş_____. Tiraj_____. Pulsuz. Bakı – 2021

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**"Radius MMC" mətbəəsi**
**(Bakı şəhəri, Binəqədi şossesi, 53)**



LAYİHƏ

Pulsuz

LAYİHƏ